Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

24 OKTYABR 2019-cu il

№ 189 (4087)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AVROPARLAMENTDƏ ANTİ-AZƏRBAYCAN ŞƏBƏKƏSİ YENİ REVANŞA QALXDI - QANUNSUZ AKSİYALARA İKİLİ YANAŞMA YENƏ GÜNDƏMDƏ...

səh. 8

**Prezidentin kadr inqilabı - Mikayıl Cabbarova ən böyük nazirlik etibar edildi, Ramiz Mehdiyev Təhlükəsizlik Şurasının tərkibinə daxil edildi**

səh. 2

**Prezident biznes mühitini yaxşılaşdırmağa çağırdı, Şahin Mustafayev nədən başlayacaq...**

səh. 3

**Azərbaycanın iqtisadi artımı demoqrafik inkişafı üstələyə bilməsə... Prezident hansı problemlərdən yan keçməyi hədəflədi...**

səh. 10

**Yeni Baş nazir və müavini qarşısında qoyulan vəzifələr - "Prezident hökumətə fəaliyyət proqramı verdi" demək olarmı...**

səh. 6

**KİVDF jurnalistlər üçün "DOST mərkəzləri müasir Azərbaycanın siması kimi" mövzusunda müsabiqənin qaliblərini mükafatlandırdı**

səh. 4

**BMT-də bir söz, Xankəndidə başqa söz deyən "rəhbər" - Ermənistana sərt Qarabağ xəbərdarlığı...**

səh. 9

**Xorvatiya Azərbaycanın hesabına Balkanlarda haba çevrilmək istəyir, təcavüzkar Ermənistanın AB ilə sazişinə isə "gözüyumulu qol çəkir" - təzad...**

səh. 5



**Prezident Mikayıl Cabbarovla söhbətdə ciddi mətləblər açıqladı - «Prezident kimi fəaliyyətimin bütün dövrlərində təzyiqlə üzləşmişik... Sahibkarlara uzanmış çirkin əllər kəsilməlidir... Hüquq-mühafizə orqanları məndən ciddi tapşırıq alıblar...»**

səh. 2



**Prezident iqtidarda neqativ məmurların şərti iki qrupunu göstərdi - reket media ilə birləşmiş antiislahatçılar və biznesi qanunsuz dəstəkləyən inhisarçılar...**

səh. 3

**Prezident Şahin Mustafayevə mümkün və çətin iş tapşırdı - kölgə iqtisadiyyatını işığa çıxarmaq...**

səh. 5



**Bakı-Tiflis-Qarsla sərnişin daşınması Gürcüstana görə start götürə bilmir...**

səh. 12

**Bakı Şəhər Baş Polis İdarəsinin 9 ayda böyük uğurları - bütün növlər üzrə cinayətlərin sayında əhəmiyyətli azalma var...**

səh. 2



**Prezident daha bir həlli vacib problemi ictimai müzakirəyə çıxardı - qeyri-neft sektorumuzda xarici sərmayələr...**

səh. 11



**Müasir informasiya texnologiyalarına yaxın bələdçilik polis kadrlara hansı üstünlükləri təmin edir - nazirin tövsiyəsinə ekspert şərhi...**

səh. 10



**Qarabağda yeni erməni partiyası - Paşinyanla separatçıların döyüşü yeni mərhələyə çıxır**

səh. 8



**Ölkədə qənd istehsalçılarının insanlara "kimya" yedizdirməsi təhlükəsindən necə qorunmalı...**

səh. 14



## Prezidentin kadr inqilabı - Mikayıl Cabbarova ən böyük nazirlik etibar edildi, Ramiz Mehdiyev Təhlükəsizlik Şurasının tərkibinə daxil edildi

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının tərkibi"ndə dəyişiklik edilməsi haqqında fərman imzalayıb.**

Fərmanda qeyd edilir ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının tərkibi"nə "Azərbaycan Respublikasının daxili işlər naziri;" sözlərindən sonra "Ramiz Ənvər oğlu Mehdiyev;" sözləri əlavə edilsin.

Xatırladaq ki, Prezident sərəncamı ilə Ramiz Mehdiyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri vəzifəsindən azad edilib.

Prezidentin digər sərəncamı ilə R.Ə.Mehdiyev "Heydər Əliyev" ordeni ilə təltif edilib. Prezident İlham Əliyev oktyabrın 23-də Ramiz Mehdiyevi qəbul edib və onu "Heydər Əliyev" ordeni ilə təltif edib.

Prezident Əliyev Ramiz Mehdiyevi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsinə təsdiq edib. Xatırladaq ki, daha öncə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti Akif Əlizadənin vəzifəsindən azad olunması üçün yazdığı ərizə ilə bağlı AMEA Rəyasət Heyətinin iclası keçirilib, akademik Ramiz Mehdiyev AMEA-nın prezidenti vəzifəsinə seçilib.

Prezident İlham Əliyev Mikayıl Cabbarovu Azərbaycan Respublikasının Vergilər naziri vəzifəsindən azad edərək, Azərbaycan Respublikasının İqtisadiyyat naziri təyin edib.

Prezident İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında da fərman imzalayıb.

Fərmanda qeyd edilir ki, ölkənin davamlı inkişafının təmin edilməsi məqsədilə aparılan sosial-iqtisadi islahatların dərinləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda daha yüksək əlavə dəyərin yaradılması və ixrac potensialın artırılması vəzifələri müvafiq sahələrdə struktur dəyişikliklərinin sürətləndirilməsini və dövlət idarəetmə strukturunun təkmilləşdirilməsini zəruri edir. Fərmana əsasən, Vergilər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müvafiq dövlət xidmətləri statusunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilib.

İqtisadiyyat Nazirliyinin yeni strukturu təsdiq edilib.

Müəyyən olunub ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan dövlət orqanlarının və onların tabeliyində olan qurumların strukturu, işçilərin say həddi, hüquqi vəziyyəti, vəzifə maaşları, əməyin ödənilməsi sistemi və xidmətkeçmə ilə bağlı hüquq və vəzifələri ilkin mərhələdə dəyişməz olaraq qalır.

# President Mikayıl Cabbarovla söhbətdə ciddi mətləblər açıqladı - "Prezident kimi fəaliyyətimin bütün dövrlərində təzyiqlə üzləşmişik... Sahibkarlara uzanmış çirkin əllər kəsilməlidir... Hüquq-mühafizə orqanları məndən ciddi tapşırıq alıblar..."



**Prezident İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edib.**

Prezident İlham Əliyev deyib:

- Mən qərara gəldim ki, sizi İqtisadiyyat naziri vəzifəsinə təyin edim. Siz müxtəlif vəzifələrdə, o cümlədən İqtisadiyyat Nazirliyində nazir müavini vəzifəsində çalışmısınız, Təhsil naziri, Vergilər naziri kimi fəaliyyət göstərmisiniz. Xüsusilə sizin Vergilər naziri kimi fəaliyyətinizi qeyd etməliyəm. Aparılan islahatlar nəticəsində vergilər sistemində şəffaflıq təmin edilir, biznes dairələri üçün vahid qaydalar tətbiq olunur…

…Biz indi dünyada gedən prosesləri diqqətlə baxırıq və görürük ki, hansı ölkələr iqtisadi cəhətdən başqa ölkələrdən, yaxud da beynəlxalq maliyyə qurumlarından asılıdırsa, o ölkələr müstəqil siyasət apara bilməz, o ölkələr bir növ böyük ölkələrin girovuna, alətinə çevrilir. O ölkələrin hökumətlərini bəzi hallarda öz xalqına, öz milli maraqlarına görə istifadə etmək üçün onlara təzyiq edilir və onlar bu təzyiqə davam gətirə bilmir. Bizə də təzyiq göstərilir və mənim Prezident kimi fəaliyyətimin bütün dövrlərində göstərilən təzyiqlə üzləşmişik. Ancaq buna davam gətirə bilmişik, müqavimət göstərmişik, öz sözümüzü demişik və heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz. Nə üçün? İlk növbədə, biz xalqın dəstəyinə arxalanırıq…

Bizim iqtisadiyyatımızın əsas hissəsini neft-qaz sektoru təşkil edir. Bu, təbiidir. Bu, demək olar ki, neft-qazla zəngin olan bütün ölkələrdə müşahidə edilən mənzərədir və bu, faktdır. Bəzi hallarda bunu mənfi amil kimi yozurlar. Mən bunu mənfi amil kimi qəbul edə bilmərəm, çünki məhz neft-qaz sektorunun inkişafı hesabına biz böyük infrastruktur layihələri icra etmişik, neft-qaz sektorunun gəlirləri hesabına biz 300 mindən çox köçkünü yerləşdirmişik, biz ordumuzu gücləndirmişik, biz böyük sosial layihələri icra etmişik. Əgər bizdə neft-qaz sektoru olmasaydı, yaxud da ki, bu sektoru inkişaf etdirməsəydik, biz nəyin hesabına inkişaf edəcəkdik? Guya kimsə bizə gəlib arxamı duracaqdı?

…Bizim iqtisadiyyatımız dayanıqlı olmalıdır. İndiki iqtisadi artım templəri məni qane etmir. Düzdür, bunun obyektiv səbəbləri var. Hazırda neftin hasilatının bir qədər aşağı düşməsi nəticəsində ümumi daxili məhsulda müəyyən dərəcədə yavaşıma var. Ancaq doqquz ayda ümumi daxili məhsul 2,5 faiz artıb, amma qeyri-neft sektorunda 3,5 faiz. Hesab edirəm ki, bu pis göstərici deyil.

…Kadr islahatları labüddür, bu qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər.

…Biz də çalışmalıyıq elə bir şərait yaradaq ki, hər bir istedadlı insan, biznesə meyli, həvəsi olan hər bir insan bizneslə məşğul ola bilsin, məmur təzyiqindən, müdaxiləsindən azad olsun. Sahibkarlara yönəlmiş o çirkin əllər gərək kəsilsin. Bəzi hallarda dövlət məmurları, yerli icra orqanlarının rəhbərləri, nümayəndələri imkan vermirlər, xüsusilə bölgələrdə. Əgər indi kimsə özü üçün bir balaca iş qurursa, gəlib zəli kimi onun bədənindən yapışırlar, qanını sorurlar. Belə adamlara qarşı çox ciddi tədbirlər görüləcəkdir. Hüquq-mühafizə orqanları artıq məndən çox ciddi tapşırıq alıblar və siz nazir kimi çalışmalısınız ki, belə hallara yol verilməsin, əgər yol verilərsə, dərhal məni məlumatlandırın. Belə yaramaz məmurlara qarşı ən ciddi sanksiyalar və tədbirlər görüləcəkdir. Ona görə biz sahibkarlara nəfəs verməliyik ki, onlar rahat işləsinlər. Vergidən başqa heç bir ödəniş ola bilməz.

Eyni zamanda, haqsız rəqabət, bu da bizim üçün böyük yaradır. Buna təkan verən dövlət məmurlarıdır, hansıların ki, biznes maraqları var. Onlar öz imkanlarından istifadə edərək rəqibləri sıradan çıxarırlar, bəzi hallarda şərləyirlər. Elə şərait yaradırlar ki, onlar məcbur olub ya bizneslərini satsınlar, ya da ki, çıxıb getsinlər. Buna da yol vermək olmaz, heç kimdən çəkinmədən. Mən bilirəm, sizə nazir kimi, xüsusilə Vergilər naziri kimi, bəziləri təzyiqlər göstərməyə çalışırdılar ki, bizim biznesimizə dəymə. Mən bilirəm ki, siz onların qarşısında çox mətanətlə çıxış etmişiniz. Mən bunu həmişə dəstəkləmişəm və sizə həmişə dəstək olmuşam. Demişəm ki, heç kimə baxmadan bütün işlər ən yüksək səviyyədə görülməlidir. Heç kim heç bir imtiyaza sahib ola bilməz. Bir imtiyaz var: vergini vermək, Vətənə ləyaqətlə xidmət etmək və pozuntulara yol verməmək.

*Baki-xeber.com*







# Bakı Şəhər Baş Polis İdarəsinin 9 ayda böyük uğurları - bütün növlər üzrə cinayətlərin sayında əhəmiyyətli azalma var...

**Oktyabrın 23-də Bakı Şəhər Baş Polis İdarəsində cari ilin doqquz ayında cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini, əməliyyat-xidməti fəaliyyətin digər sahələrində görülən işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan geniş əməliyyat müşavirəsi keçirilib.**

"Trend"in məlumatına görə, müşavirəni açan Baş İdarənin rəisi, polis general-mayoru Mirqafar Seyidov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən islahatlar, müvafiq dövlət qurumlarının və hüquq-mühafizə orqanlarının birgə səmərəli fəaliyyətin təkmilləşməsinə hərtərəfli şərait yaratmış, yeni mərhələdə islahatların dərinləşdirilməsi müasir çağırışlara uyğun paytaxt polisinin də maddi-texniki bazasının möhkəmləndirilməsinə öz müsbət təsirini göstərib.

Sonra Bakı Şəhər Baş Polis İdarəsi rəisinin əməliyyat işləri üzrə müavini, polis polkovniki Teymur Hacıyev cari ilin 9 ayında paytaxtın polis orqan və hissələri tərəfindən həyata keçirilən tədbirlərin nəticələri və qarşıda duran vəzifələr barədə geniş məruzə ilə çıxış edib.

Qeyd olunub ki, 2019-cu ilin 9 ayı ərzində paytaxtda Daxili İşlər Nazirliyi və Prokurorluq üzrə 8023 cinayət qeydə alınıb ki, onların da 87,7 faizi az ağır və böyük ictimai təhlükə törətməyən, 12,3 faizi isə ağır və xüsusilə ağır növlər olub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ümumi cinayətlər 3,2 faiz, az ağır cinayətlər 1,5 faiz, böyük ictimai təhlükə törətməyən cinayətlər 9,5 faiz, adam öldürməyə cəhdlər 13,6 faiz, ehtiyatsızlıqdan adam öldürmə 20 faiz, mülkiyyət əleyhinə cinayətlər 12 faiz azalıb. İstintaqı tamalanmış cinayət işləri üzrə vətəndaşlara vurulmuş maddi ziyanın 93,9 faizi ödətdirilib.

Məruzəçi bildirib ki, qarşımızda duran mühüm vəzifələr sırasında vətəndaşların ərizə və şikayətlərinə baxılması, onları qəbulu işi ciddi nəzarətdə saxlanılıb. Baş Polis İdarəsinə daxil olan müraciətlər üzrə 1390 vətəndaş qəbul edilib.

**Məruzəətrafı çıxışlarda Bakı Şəhər BPİ-nin və rayon polis idarələrinin rəisləri hesabat dövründə əldə olunmuş müsbət nəticələri, yol verilmiş nöqsan və çatışmazlıqları qeyd edərək, onların aradan qaldırılması üçün həyata keçiriləcək tədbirləri diqqətə çatdırıblar.**

# Prezident iqtidarda neqativ məmurların şərti iki qrupunu göstərdi - reket media ilə birləşmiş antiislahatçılar və biznesi qanunsuz dəstəkləyən inhisarçılar...

**Prezident İlham Əliyev oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə bir sıra mühüm məqamlara toxundu. Ölkə başçısının çıxışı, faktiki olaraq, yeni islahatlar dalğasının anonsu idi. Görünən budur ki, Prezident cavan, müasir təhsil və dünyagörüşlü, həmçinin, daha çevik kadrlarla işləməyə üstünlük verəcək.**



## *İlqar Hüseynli: "Qara işlərlə korrupsiyaya bulaşmış adamlar daha çox məşğul olurlar"*

Dövlət başçısı çıxışında açıq bəyan etdi ki, islahatlar davam edəcək və islahatlara mane olanlara yerlərini göstərəcək: "Kim buna qarşı çıxsa və altdan-altdan bizim işimizə mane olmaq istəsə, əlbəttə ki, belə adamlarla biz bir yolun yolçusu ola bilmərik".

İlham Əliyevin çıxışında toxunduğu əsas məsələlərdən biri də islahatlara mane olmaq üçün medianın daxili mübarizə alətinə çevrilməsinin yolverilməzliyi ilə bağlı idi: "Mətbuat, bir növ, daxili mübarizə növünə çevrilib. Bu, dözülməzdir. Mən indi dərinə getmək istəmirəm, amma bildirməliyəm ki, bir hökumət üzvü digər hökumət üzvləri tərəfindən şantaj edilir. Onlar ləkələnir. Onların apardığı islahatlar, hansılar ki, Prezidentin tapşırığıdır, onlara kölgə salınır".

Prezident bununla islahatlar; sabotaj edən məmurların bir kateqoriyasını göstərdi. Söhbət "reket" media rıçaqlarından istifadə edərək ölkə başçısının tapşırıqlarını həyata keçirən məmurları şantaj elətdirənlərdən gedir.

Prezident iqtidarda olan neqativ məmurların ikinci kateqroyasını isə Baş nazirin yeni təyin olunan müavini Şahin Mustafayevi qəbul edərkən göstərib. Ölkə başçısı bildirib ki, kölgə iqtisadiyyatına qarşı mübarizə gücləndirilməlidir: "Əfsuslar olsun ki, hələ kölgə iqtisadiyyatı bizim iqtisadiyyatımızın bir hissəsini ehtiva edir. Düzdür, bütün postsovet ölkələrində bu problem var və ölkələr çalışırlar ki, bu problemlə mübarizə aparsınlar. Azərbaycanda kölgə iqtisadiyyatına qarşı mübarizə daha mütəşəkkil formada aparılır. Hesab edirəm ki, kölgədən çıxarılacaq biznes, əlbəttə, bizim iqtisadi göstəricilərimizi də düzəldəcək. Yəni göstəricilər reallığı əks etdirəcək. Eyni zamanda, biznes dairələri bilməlidirlər ki, ölkədə vahid qanunlar, vahid qaydalar mövcuddur. İnhisarçılığa qarşı çox ciddi mübarizə aparılmalıdır. Bəzi hallarda dövlət məmurları, hansılar ki, eyni zamanda, müxtəlif biznes dairələrinə də kömək göstərirlər, onlar haqsız rəqabət aparırlar. Azərbaycanda inhisarçılığa qarşı mübarizə mütəşəkkil xarakter daşımalıdır. Əgər biz buna nail olsaq, əlbəttə, biznes dairələri üçün daha yaxşı şərait yaradılacaq".

Göründüyü kimi, Prezident neqativ fəaliyyətlə məşğul olan məmurları haqsız rəqabət aprmaqda və müxtəlif biznes dairələrinə kömək göstərməkdə ittiham edib. Bu iki kateqoriya məmurlarla mübarizə hansı səviyyədə aparılmalıdır?

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısının göstərdiyi ünvanlar dəqiqdir: "Azərbaycanda prioritet olan məsələ orta sahibkarlığın və qeyri-neft sektorunun inkişafıdır. Ölkəni, birmənalı şəkildə, neft asılılığından çıxarmaq lazımdır. Bizdə əsas problemli məqam ondan ibarətdir ki, bəzi məmurlar və deputatlar belə islahatın aparılmasını istəmirlər. Çünki bu və ya digər biznes sahələri ya məmurların, ya da bəzi deputatların monopoliyasındadır. İstəsəniz konkret siyahı da təqdim edə bilərəm. Fikir verin, uzun illərdir bizdə Rəqabət Məcəlləsi qəbul olunmayıb. Çünki bir çox məmur və deputatın ürəyincə deyil. Məmurların kompromat savaşı aparması da faktdır. Bunun üçün bəzi media qurumlarını məmurların nəzarətindən çıxarmaq lazımdır. Məhz bunun nəticəsidir ki, onlar bəzi KİV üzərində şərtlərini diqtə edə bilirlər. Bununla da mübarizə aparan qurumlar olmalıdır. Ortada Prezident səviyyəsində siyasi iradə varsa, heç nədən çəkinmədən bunun üstünə getmək olar. Ancaq bir faktı da deyim ki, belə fəaliyyətlərə meylli olan məmurlar vəzifələri ilə vidalaşsalar, kiminsə kopromat savaşı aparmağa həvəsi də olmaycaq. Çünki qara işlərlə korrupsiyaya bulaşmış adamlar daha çox məşğul olurlar. Hər iki məmur tipi zərərlidir, inkişafın qarşısını alır".

*"Hər iki məmur tipi zərərlidir, inkişafın qarşısını alır"*

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident biznes mühitini yaxşılaşdırmağa çağırdı, Şahin Mustafayev nədən başlayacaq...

**"Biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılmalıdır". Bunu Prezident İlham Əliyev Şahin Mustafayevi yeni vəzifəyə - Baş nazirin müavini təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.**



## *Fikrət Yusifov: "Dövlətin islahatları aparmaq üçün, praktik olaraq, əldə olan bütün rıçaqları işə saldığı bir vaxtda nəticələrin belə zəif olması məyusluq doğurur"*

"Biznes mühitinin yaxşılaşdırılmasını Dünya Bankı kimi ən aparıcı beynəlxalq maliyyə qurumu qiymətləndirir və biznes mühitinin səviyyəsinə görə biz dünyada 25-ci yerdəyik, 20 ən islahatçı ölkə arasındayıq. Eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumu illik hesabatında Azərbaycanı bir çox meyarlar üzrə qabaqcıl yerlərə layiq görüb. Bütün bunlar aparılan islahatların nəticəsidir. Ancaq hesab edirəm ki, biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik".

Prezident onu da vurğulayıb ki, iqtisadi sahədə hələ də bir çox problem mövcuddur, o cümlədən, biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılmalıdır.

Biznes mühitinin yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq müəyyən işlər görülür və görülməkdədir.

Maraqlıdır, biznes mühitinin yaxşılaşdırılması istiqamətində nə kimi işlərin görülməsinə ehtiyac var?

İqtisadçı-ekspert Fikrət Yusifov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, sürətli iqtisadi islahatlara start verildikdən sonra bir-birinin ardınca qəbul edilən qərarlar fonunda, ölkə iqtisadiyyatının real sektorunda ikirəqəmli artım templərinə çatılacağına heç kəsin şübhəsi yox idi: "Lakin bu gözləntilər özünü doğrultmadı. Elə bu səbəbdəndir ki, bu ayın 15-də keçirilən iqtisadi müşavirədə və sabiq iqtisadiyyat nazirini Baş nazirin müavini vəzifəsinə təyin edəndə də Prezident qeyri-neft sektorunun inkişaf sürətindən və bu sektordan ixracın səviyyəsindən narahatlıq ifadə etdi. Dövlətin islahatları aparmaq üçün, praktik olaraq, əldə olan bütün rıçaqları işə saldığı bir vaxtda nəticələrin belə zəif olması məyusluq doğurur.

Prezident Şahin Mustafayevi qəbul edərkən kölgə iqtisadiyyatı, inhisarçılıq və biznesdə məmur himayədarlığı ilə bağlı kəskin fikirlər səsləndirdi. Bu neqativ halların mövcudluğunun kökündə, ilk növbədə, məmur özbaşınalığı dayanır.

Bu sıraya onların səriştəsiz idarəçiliyini də əlavə etsək, o halda, qəbul edilən qərarların gözləntiləri doğrulda bilməməsinin səbəbləri tam aydınlaşar. Elə bu səbəbdəndir ki, Prezident indi kadr islahatlarına start verdi. "Kadrlar hər şeyi həll edir" kimi məşhur bir deyim indi daha aktual görünür. Çünki yerində olan, dövləti və xalqı üçün vicdanla çalışmağı hər şeydən üstün tutan kadrlar həmişə yaxşı nəticələr əldə edə biliblər".

*"Elə bu səbəbdəndir ki, Prezident indi kadr islahatlarına start verdi"*

***Günel CƏLİLOVA***

**Oktyabrın 23-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkil etdiyi "DOST mərkəzləri müasir Azərbaycanın siması kimi" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

# KİVDF jurnalistlər üçün "DOST mərkəzləri müasir Azərbaycanın siması kimi" mövzusunda müsabiqənin qaliblərini mükafatlandırdı

## *Təqdimatda nazir Sahil Babayev də iştirak etdi...*












1 saylı DOST mərkəzində keçirilən tədbirdə Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Fondun icraçı direktoru Vüqar Səfərli, nazirliyin rəhbər vəzifəli şəxsləri, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak edib. Tədbir iştirakçıları əvvəlcə DOST mərkəzinin fəaliyyəti və burada əhaliyə göstərilən xidmətlərlə yaxından tanış olub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qonaqları salamlayaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial islahatlar proqramının nailiyyətlərini xüsusi qeyd edib. O bildirib ki, bu il 4,2 milyon vətəndaşın rifahına ciddi dəstək olan iki sosial paket icra olunub. Eyni zamanda həssas qrupları əhatə edən sosial müdafiə və aktiv məşğulluq proqramları getdikcə genişlənir. Nazir qeyd edib ki, əmək, məşğulluq, sosial müdafiə və təminat sahələrində idarəçiliyin və əhaliyə xidmətlərin optimal, şəffaf, çevik iş mexanizmləri üzərində qurulması, vətəndaş məmnuniyyətinə nail olunması üçün mühüm islahatlar aparılır. Azərbaycan Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsinin gerçəkləşməsi bu sahədə mühüm uğurlar əldə etməyə imkan yaradıb. Nazir əlavə edib ki, bu ilin sonunadək 2, gələn il isə 8 əlavə DOST mərkəzinin istifadəyə verilməsi vətəndaş məmnunluğunun yüksək səviyyədə təminatına, xidmətlərin avtomatlaşdırılmasına və keyfiyyətinin yüksəlməsinə imkan verəcək.

Nazir həmçinin xatırladıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sosial-iqtisadi müşavirədə gələn il də ciddi sosial proqramların icra ediləcəyini, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün önəmli addımların atılacağını bəyan edib. Dövlət başçısı, eyni zamanda, şəffaflığın, dövlət nəzarətinin və ictimai nəzarətin təminatını əsas vəzifələrdən biri kimi müəyyən edib, "Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq", - deyə vurğulayıb.

Sahil Babayev müvafiq fəaliyyət sahələrində ictimai iştirakçılığın və ictimai nəzarətin, nazirlik üzrə məlumatların ictimai açıqlığının təmin edilməsi üçün görülmüş işləri qeyd edib. Bildirib ki, "e-sosial" internet portalı vətəndaşlara özləri barədə sosial xarakterli məlumatlara çıxış imkanı ilə bərabər, öz sosial hüquqlarının təminatına da geniş ictimai nəzarət imkanı verib. Burada özünüməşğulluq proqramının iştirakçıları, onlara aktivlərin verilməsi prosesi, aktivlərin keyfiyyəti və s. məlumatlar açıqlanır, nazirliyin rəsmi saytında "İşsizin DOSTu" proqramı iştirakçılarının siyahısı təqdim olunur.

Nazir ictimaiyyətlə əlaqələrin effektiv təşkilində, ictimai məlumatlandırmada media ilə fəal əməkdaşlığa da xüsusi önəm verildiyini vurğulayıb. Nazir əlavə edib ki, "DOST mərkəzləri müasir Azərbaycanın siması kimi" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin təşkilində məqsəd dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi ilə göstərilməsinə imkan verən DOST layihəsinin üstünlükləri barədə geniş ictimai məlumatlandırmada peşəkar jurnalist əməyinin stimullaşdırılmasıdır. Nazir müsabiqənin nəticələri barədə danışmaq üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib.

İcraçı direktor bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan uğurlu sosial islahatlar paketi 2019-cu ildə vətəndaşların sosial rifah halının əhəmiyyətli dərəcədə yüksəlməsini təmin edib. O, son 1 il yarımda nazirliyin səmərəli və çevik fəaliyyətinin əhalinin sosial rifah halının yüksəldilməsi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədinə xidmət etdiyini bildirib. Hökumət üzvlərinin iştirakı ilə keçirilmiş son iqtisadi müşavirədə nazirliyin uğurlu fəaliyyətinin dövlətimizin başçısı tərəfindən də qeyd edildiyini xatırladan Vüqar Səfərli qazanılan nailiyyətlərə görə nazir Sahil Babayevi təbrik edib.

Çıxışını davam etdirən icraçı direktor həmçinin bildirib ki, Fondun fəaliyyətində başlıca istiqamətlərdən biri də mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı faydalı əməkdaşlığı gücləndirməkdir. Vüqar Səfərli əlavə edib ki, bu məqsədlə mütəmadi olaraq konfranslar keçirilir, fərdi jurnalist yazıları təşkil olunur. Son 1 il yarımda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə 4 belə müsabiqənin keçirildiyini xatırladan Vüqar Səfərli bunu nazirliyin mediaya açıq olması və səmərəli fəaliyyəti kimi dəyərləndirib.

İcraçı direktor həmçinin vurğulayıb ki, 24 iyul 2019-cu il tarixdə elan edilən və 27 sentyabr 2019-cu il tarixdə başa çatan müsabiqəyə 17 KİV-dən 29 yazı təqdim edilib. Yazılar 3 nəfər ekspert tərəfindən qiymətləndirilib. Müsabiqənin şərtlərinə əsasən, I yerin qalibi (1 nəfər) üçün 1000 manat, II yerin qaliblərinin (2 nəfər) hər biri üçün 800 manat, III yerin qaliblərinin (3 nəfər) hər biri üçün 500 manat, eləcə də həvəsləndirici yerlərə layiq görülmüş KİV əməkdaşlarının (5 nəfər) hər biri üçün 200 manat pul mükafatı və diplomlar nəzərdə tutulub.

Tədbirdə çıxış edən Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov dövlət qurumlarının fəaliyyətində mətbuatla sıx əməkdaşlığın, o cümlədən belə müsabiqələrin keçirilməsinin əhəmiyyətini xüsusi vurğulayıb, qalibləri təbrik edib. Ə.Amaşov bildirib ki, dövlət başçısının uğurla reallaşdırdığı iqtisadi islahatların nəticəsi kimi son illər əhalinin sosial müdafiəsi mexanizmləri təkmilləşir, bu sahədə xidmətlərin səviyyəsi yüksəlir.

Mətbuat Şurasının sədri sosialyönümlü islahatların uğurla reallaşdırılmasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin də üzərinə mühüm vəzifələrin düşdüyünü bildirib. O, xüsusən də regionlarda yaşayan əhalinin maarifləndirilməsi istiqamətində nazirliklə medianın birgə və səmərəli fəaliyyətinin genişləndirilməsinə ehtiyac olduğunu vurğulayıb.

**Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar təqdim edilib.**

# Prezident Şahin Mustafayevə mümkün və çətin iş tapşırdı - kölgə iqtisadiyyatını işığa çıxarmaq...

**"Əfsuslar olsun ki, hələ kölgə iqtisadiyyatı bizim iqtisadiyyatımızın bir hissəsini ehtiva edir". Bunu Prezident İlham Əliyev oktyabrın 22-də Şahin Mustafayevi yeni vəzifəyə - Baş nazirin müavini təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.**



## *Fuad İbrahimov: "Kölgə iqtisadiyyatını minimum səviyyəyə endirmək üçün dövlət stimullaşdırıcı tədbirlər görməlidir"*

Ölkə başçısının Baş nazirin müavini qarşısında qoyduğu vəzifələrdən biri də kölgə iqtisadiyyatı ilə mübarizə ilə bağlı olub. Prezidentin sözlərinə görə, yeni artım mənbələri aşkar etməliyik: "Onlardan biri kölgə iqtisadiyyatına qarşı mübarizədir. Əfsuslar olsun ki, hələ kölgə iqtisadiyyatı bizim iqtisadiyyatımızın bir hissəsini ehtiva edir. Düzdür, bütün postsovet ölkələrində bu problem var və ölkələr çalışırlar ki, bu problemlə mübarizə aparsınlar. Azərbaycanda kölgə iqtisadiyyatına qarşı mübarizə daha mütəşəkkil formada aparılır. Hesab edirəm ki, kölgədən çıxarılacaq biznes, əlbəttə, bizim iqtisadi göstəricilərimizi də düzəldəcək. Yəni göstəricilər reallığı əks etdirəcək. Eyni zamanda, biznes dairələri bilməlidirlər ki, ölkədə vahid qanunlar, vahid qaydalar mövcuddur. İnhisarçılığa qarşı çox ciddi mübarizə aparılmalıdır. Bəzi hallarda dövlət məmurları, hansılar ki, eyni zamanda, müxtəlif biznes dairələrinə də kömək göstərirlər, onlar haqsız rəqabət aparırlar. Azərbaycanda inhisarçılığa qarşı mübarizə mütəşəkkil xarakter daşımalıdır. Əgər biz buna nail olsaq, əlbəttə, biznes dairələri üçün daha yaxşı şərait yaradılacaq".

Görünən odur ki, kölgə iqtisadiyyatı tamamilə aradan qaldırılmayıb. Bir sıra işlərin görülməsinə baxmayaraq, hələ də bu problem qalır. Bütövlükdə, kölgə iqtisadiyyatından necə xilas olmaq olar?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, kölgə iqtisadiyyatından xilas olmaq üçün bir sıra işlər görülməlidir: "Kölgə iqtisadiyyatı bütün dünyada var. Elə ölkə yoxdur ki, orada bu problem olmasın. İstənilən dövlətin prioritet sahələrindən biri də kölgə iqtisadiyyatı ilə mübarizədir. Yəni kölgə iqtisadiyyatının rəsmiləşdirilməsi dövlətlərin başlıca vəzifələrindən biridir. Kölgə iqtisadiyyatını minimum səviyyəyə endirmək üçün dövlət stimullaşdırıcı tədbirlər görməlidir. Uzun illər bu sahədə problemlər var idi. Bəzi qurumlar bu istiqamətdə işini qura bilmirdi. Əvvəlki nazirlər işi təşkil edə bilmirdilər. Xüsusən də keçmiş vergilər naziri Fazil Məmmədov. Nəticədə sahibkarlar müxtəlif vasitələrlə vergidən yayınırdılar. Fazil Məmmədovdan sonra sahibkarlarla vergi orqanları arasında elastik münasibətlər qurulub. Artıq bu, statistik və konkret rəqəmlərlə təsdiq olunur.

*"...sahibkarlarla vergi orqanları arasında münasibətlər elastik olmalıdır"*

Bu o deməkdir ki, artıq sahibkar özü maraqlıdır biznesini leqallaşdırsın. Hesab edirəm ki, ən şəffaf yol sahibkarı stimullaşdırmaqdır. Sahibkar vergisini ödəməkdə, pensiya fondunu müəyyənləşdirməkdə maraqlı olmalıdır. Bu nöqteyi-nəzərdən sahibkarlarla vergi orqanları arasında münasibətlər elastik olmalıdır. Hədə-qorxu yolu ilə bu işləri həll etmək mümkün deyil".

***Vidadi ORDAHALLI***

# Xorvatiya Azərbaycanın hesabına Balkanlarda haba çevrilmək istəyir, təcavüzkar Ermənistanın AB ilə sazişinə isə "gözüyumulu qol çəkir" - təzad...

**Bu günlərdə Xorvatiya Parlamenti lehinə 115 və əleyhinə 4 səs olmaqla Ermənistanla Avropa İttifaqı arasında imzalanan Hərtərəfli və genişlənmiş tərəfdaşlıq haqqında sazişi ratifikasiya edib. Bu barədə Ermənistan XİN rəsmisi Anna Nağdalyan məlumat yayıb.**



## *Arzuxan Əlizadə: "Ermənistanın AB ilə imzaladığı əməkdaşlıq sazişini Xorvatiya parlamentinin belə tez ratifikasiya etməsi təəssüf doğurur"*

Qeyd edək ki, Ermənistanla Avropa İttifaqı arasında Hərtərəfli və genişlənmiş tərəfdaşlıq haqqında saziş 24 noyabr 2017-ci ildə imzalanıb. 2018-ci ilin aprelində Ermənistan parlamenti tərəfindən təsdiqlənib. Hazırda Avropa Birliyinin 28 ölkəsindən 16-sı Ermənistanla imzalanan sözügedən sazişi ratifikasiya edib. Bunlar Bolqarıstan, Danimarka, Estoniya, Birləşmiş Krallıq, Macarıstan, Litva, Latviya, Lüksemburq, Belçika, Malta, Polşa, Rumıniya, Finlandiya, İtaliyadır.

O da məlumdur ki, son illər Azərbaycanla Xorvatiya arasında əlaqələr genişlənir. Ötən il iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 250 milyon dollardan çox olub. Xorvatiya dövlət rəsmilərinin Azərbaycana səfərləri artıb. Bununla belə, Xorvatiya "Cənub Qaz Dəhlizi"nə qoşulmaq niyyətindədir. Ən başlıcası, Albaniya, Bosniya və Hersoqovina, Xorvatiya, Monteneqro Azərbaycan qazını Avropaya nəql edəcək İon - Adriatik boru kəmərinin (İAP) ilkin layihəsini 2020-ci ilin sentyabr ayınadək hazırlamaq niyyətindədir. Qeyd edək ki, Azərbaycan təbii qazının Avropaya nəql ediləcəyi Trans Adriatik Boru Kəmərinə (TAP) qoşulacaq İAP Xorvatiya (249 kilometr), Monteneqro (95 km), Albaniya (167 km) ərazisindən keçəcək, illik nəqletmə gücü də 5 milyard kubmetr həcmində nəzərdə tutulur. 2016-cı ilin avqust ayında İAP tikintisinə dair tərəflər arasında anlaşma memorandumu imzalanıb. Sözügedən kəmər ərsəyə gəldikdən sonra Xorvatiya Balkan regionunda enerji habına çevriləcək.

Azərbaycanın bir belə önəmli roluna rəğmən, Xorvatiyanın Ermənistanla AB arasında imzalanan sazişi belə tez ratifikasiya etməsi təəssüf doğurur. Ən azından, Xorvatiya bunu sonrakı mərhələyə qədər yubada bilərdi. Nəzərə almaq lazımdır ki, AB ölkələrinin heç də hamısı Ermənistanla imzalanan sazişi ratifikasiya etməyib.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Xorvatiyanın sözügedən məsələdə belə tez-tələsik addım atması təəssüf doğurur: "Məsələ ondadır ki, son illər Azərbaycan Xorvatiya ilə iqtisadi əməkdaşlığa xüsusi önəm verir. Xorvatiya enerjiyə, xüsusən də qaza olan tələbatını Azərbaycan hesabına təmin etmək istəyir. Bununla yanaşı, Xorvatiya maraqlıdır ki, Azərbaycan bu ölkənin iqtisadiyyatına sərmayə qoysun. Ona görə ki, Xorvatiya Azərbaycanın bu sahədə imkanlarının, enerji və tranzit ölkə olaraq regionda oynadığı önəmli rolun fərqindədir. İki ölkə rəsmilərinin qarşılıqlı səfərləri də deyilənlərə əyani sübutdur.

*"Gərək bu məsələdə Azərbaycanın maraqları nəzərə alınaydı"*

O üzdən, Ermənistanın AB ilə imzaladığı əməkdaşlıq sazişini Xorvatiya parlamentinin belə tez ratifikasiya etməsi təəssüf doğurur. Gərək bu məsələdə Azərbaycanın maraqları nəzərə alınaydı. Çünki Ermənistan, Azərbaycandan fərqli olaraq, Xorvatiya üçün hansısa önəm kəsb etmir. Belə olan halda, ratifikasiyanın tez həyata keçirilməsi təəssüf doğurur. Görünür, bu işdə erməni lobbisi fəal iş aparıb".

***Vidadi ORDAHALLI***

# Yeni Baş nazir və müavini qarşısında qoyulan vəzifələr - "Prezident hökumətə fəaliyyət proqramı verdi" demək olarmı...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Şahin Mustafayevi yeni vəzifəyə - Baş nazirin müavini təyin olunması ilə əlaqədar qəbul edib. Qəbul zamanı Prezident Şahin Mustafayevin indiyə qədər iqtisadi sahədə göstərdiyi xidmətdən razı qaldığını bildirib: "Siz uzun illər İqtisadiyyat naziri vəzifəsində işləyirsiniz. Bütövlükdə, sizin işinizdən mən razıyam.**

Ona görə qərara gəldim ki, sizi Baş nazirin müavini vəzifəsinə təyin edim. Bu, çox böyük vəzifədir, böyük etimaddır. Ümid edirəm ki, siz bu etimadı doğruldacaqsınız və yeni vəzifədə ölkəmizin iqtisadi inkişafının dayanıqlı olmasına öz töhfənizi verəcəksiniz".

Ölkə başçısı Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini də bildirib: "Azərbaycan iqtisadiyyatı son 15 il ərzində üç dəfədən çox artıb. Ancaq biz onu da bilməliyik ki, bu artım daha çox neftin hasilatının artırılması hesabına mümkün olub. Əlbəttə, biz neft gəlirlərinin qeyri-neft sektoruna yönəldilməsi istiqamətində çox böyük uğurlar əldə etdik və Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi işində dünya miqyasında təbii resurslarla zəngin olan ölkələr sırasında qabaqcıl yerlərdədir. Təsadüfi deyil ki, biznes mühitinin yaxşılaşdırılmasını Dünya Bankı kimi ən aparıcı beynəlxalq maliyyə qurumu qiymətləndirir və biznes mühitinin səviyyəsinə görə biz dünyada 25-ci yerdəyik, 20 ən islahatçı ölkə arasındayıq. Eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumu illik hesabatında Azərbaycanı bir çox meyarlar üzrə qabaqcıl yerlərə layiq görüb. Bütün bunlar aparılan islahatların nəticəsidir".

Prezident Şahin Mustafayevin nəzərinə görülməsi vacib olan işləri də çatdırıb: "Ancaq hesab edirəm ki, biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. İqtisadi sahədə hələ də bir çox problemlər mövcuddur, o cümlədən, biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılmalıdır. Xüsusilə, ölkə iqtisadiyyatının qeyri-neft sektoruna xarici sərmayənin cəlb edilməsi sahəsində hələ ki, bir çox işlər görülməlidir. Düzdür, ölkə iqtisadiyyatına 270 milyard dollardan çox sərmayə qoyulub. Bunun yarısı xarici sərmayədir. Ancaq bu sərmayənin də böyük əksəriyyəti neft-qaz sektoruna qoyulan sərmayədir. Bizim vəzifəmiz xarici investorları inandırmaqdır ki, ölkəmizin qeyri-neft sektoruna daha böyük həcmdə sərmayə qoysunlar. Eyni zamanda, yerli şirkətlər üçün elə gözəl biznes iqlimi yaradılmalıdır ki, Azərbaycan şirkətləri ölkə iqtisadiyyatına böyük həvəslə sərmayə qoysunlar".

Qeyd edək ki, ölkə başçısı Əli Əsədovu Baş nazir təyin edərkən ona da lazımi göstərişlər verib. Prezident İlham Əliyev hökumətin qarşısına qoyulan tapşırıqlar barədə bunları deyib: "Hazırda gələn ilin büdcəsi hazırlanır və bilirsiniz ki, büdcə hər bir ölkənin əsas sənədlərindən biridir. Yeni hökumət qarşısında bir çox vəzifələr qoyulub. Mən Əli Əsədovu bu vəzifəyə təyin edərkən ona bir çox vəzifələr tapşırdım. Onun qarşısına vəzifə qoydum ki, islahatlar aparılmalıdır, o cümlədən, kadr islahatları".

Prezident İlham Əliyev bildirib ki, müasir dünyagörüşlü, müasir iqtisadiyyatı bilən, savadlı gənc kadrlar işə cəlb edilməlidir: "Biz XXI əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik? Nə qədər biz təbii resurslara arxalanaraq, necə deyərlər, belə ətalət yolu ilə gedə bilərik? Düzdür, islahatlar aparılır, dediyim rəqəmlər bunun əyani sübutudur. Hər bir ölkə bu nəticələrlə öyünə bilər. Ancaq biz bilirik ki, ehtiyatlarımız çoxdur. Onu da bilirik ki, əgər hər hansı dövlət və ya özəl quruma təmiz, bilikli və Vətənə bağlı kadr gətirilirsə, biz orada dərhal dəyişiklikləri görürük. Hesab olunurdu ki, bizdə elə sahələr var ki, orada islahatlar aparıla bilməz. Onlardan biri də vergi sistemidir. Hesab olunurdu ki, necə deyərlər, o biabırçı vəziyyət əbədi qalmalıdır və burada heç bir irəliləyişə nail ola bilmərik. Amma hər kəs gördü ki, biz vəziyyəti islahatlar yolu ilə düzəldə bildik. Büdcəyə 100 milyonlarla manat vəsait daxil olub, digər sahələrdə də həmçinin".

Prezidentin yeni Baş nazir və onun müavini qarşısında qoyduğu vəzifələr Nazirlər Kabineti üçün yeni fəaliyyət platforması sayıla bilərmi?

İqtisadçı Elşən Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həyta keçirilən bu islahatların bir qayəsi var, o da xalqın rifah halının daha da yaxşılaşdırılmasıdır: "Bir neçə ildir biz bu yöndə ciddi addımların atıldığını görürük. Aparılan islahatlar çərçivəsində həyata keçirilən sosial paketlər əhalinin böyük bir kateqoriyasını əhatə edib. Özü də bu, davamlı xarakter alıb. Görünür ki, Prezident tərəfindən həyata keçirilən islahatlar ölkəmizin dinamik inkişafı üçündür və kompleks xarakter daşıyır. Bəziləri yanlış olaraq bunu kadr islahatı kimi qələmə verməyə çalışır. Kadr islahatları onun tərkib hissəsidir. Ölkə başçısı çıxışlarında deyir ki, yeniləşməyə, gənc kadrların işə cəlbinə zərurət var. Bu baxımdan da aparılan struktur kadr islahatlarının fonunda məmurların qarşısında kadr bankının yenilənməsi, cavanlaşması kimi tələblər qoyulur. Təbii ki, son dəyişikliklər kadr islahatlarında daha yuxarı idarəetmə strukturlarını əhatə etdiyi üçün, diqqəti cəlb edir. Qısa müddətdə Baş nazirin



dəyişməsi, onun müavinlərinin işdən azad edilməsi və artıq Baş nazirin müavini vəzifəsinə yeni təyinatın olması kadr islahatlarının daha da dərinləşməsi kimi qiymətləndirilməlidir. Prezidentin yeni təyin olunan məmurlarla görüşündə verdiyi tövsiyələrdən aydın görünür ki, söhbət şəxslərin əvəzlənməsindən getmir. Qarşıya qoyulan hədəflərə yeni şəxslərin köməkliyi ilə çatılmasından gedir. Prezident həm Baş nazir, həm də Şahin Mustafayevin qarşısında konkret tələblər qoyub. Başlıca məqsəd iqtisadiyyatımızın daha da gücləndirilməsidir.

Qeyri-neft sektorundan asılılığı azaltmaq, xarici investisiyanı həmin sahəyə cəlb etmək, daxildə sağlam rəqabət mühiti yaratmaq, məmurların iqtisadiyyatdakı monopoliya meyllərini və təsirlərini azaltmaq kimi tapşırıqlar verilib. Təbii ki, bütün bunların həyata keçməsi üçün Nazirlər Kabinetinin daha çevik işləməsi gərəkdir. Bu baxımdan da Prezidentin verdiyi tövsiyələri Nazirlər Kabineti üçün yeni fəaliyyət proqramı saymaq olar. Yəqin ki, kadr islahatlarının davamını görəcəyik. Nazirlər Kabinetinin özündən start götürən yeniləşmə işin də sürətlənməsinə gətirib çıxaracaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Ölkəmizin sürətli inkişafını gözləri götürməyən, iqtidarın uğurlarını narahatlıqla izləyən və qısqanclıqla qarşılayan bir sıra maraqlı xarici dairələr və onların pul kisələrindən birbaşa asılı olan dərnək səviyyəli bəzi müxalifət partiyaları, onların hətta şeytanla da ittifaqa girməyə hazır olan mənsəb və mənfəətpərəst liderləri özlərinin məkrli niyyətlərinə çatmaq üçün insan və vətəndaş hüquq və azadlıqlarını daim manipulyasiya obyektinə çevirir, belə universal bəşəri dəyərləri də gözdən salırlar.**

# Osmanqızının "YouTube" kanalındakı səhifəsini şərikinə işlədənlər...

*Orxan Mansurzadə yazır...*



Üzdə dinc, xəlvətdə isə zorla "demokratiya ixrac"ında ixtisaslaşmış, müxtəlif "rəngli inqilablar"ın məntiqi nəticəsi olaraq bəlli ölkələri xaos, anarxiya və vətəndaş müharibəsi girdabına yuvarlamış həmin dairələr uğursuz eksperimentləri çoxdandır ki, ölkəmizdə də reallaşdırmaq üçün dəridən-qabıqdan çıxır, bu yolda səsləri virtual aləmdən gələn radikal müxalifət cameəsinin tör-töküntülərini ölkəmizdəki əsas dayaq nöqtələri, "beşinci kolon" kimi formalaşdırmağa, toparlamağa çalışırlar.

Hər iki cəbhənin başbilənləri və azsaylı nümayəndələrinin daha çox mövsümi xarakter daşıyan pozuculuq fəaliyyətlərinin ölkəmiz və xalqımız üçün həlledici, taleyüklü ictimai-siyasi proseslər ərəfəsinə düşdüyünü desək, yəqin ki, yanılmarıq. Müstəqilliyin ilk illərində narazılıq dalğasında hakimiyyəti qəsb etsələr də bir il sonra elə eyni zəmində rüsvayçı şəkildə iqtidardan getmiş AXC-Müsavat cütlüyünün o zamankı təmsilçiləri, bu günün radikal müxalifət cinahının liderləri zaman-zaman guya siyasi fəaliyyətlərinə görə təqib olunmaları, həbsə atılmaları barədə beynəlxalq təşkilatlara, məlum çevrələrə donoslar, raportlar ötürməklə özləri barəsində daim əzabkeş obrazı yaradaraq bunu əsas mövcudluq, həm də yaxşıca qazanmaq vasitəsinə çevirə biliblər, bu yolla öz havadarlarından külli miqdarda pul qoparmağı və silməyi yaxşı bacarırlar.

İstənilən siyasi partiyanın əsas vəzifəsi seçkilərdə iştirak edib, seçici səsləri uğrunda mübarizə apararaq səs qazanıb dövlət idarəçiliyində təmsil edilmək olduğu halda bizim artıq heydən düşmüş, margilnallaşmış, cəmiyyətdə heç bir nüfuzu qalmayan xüsusən radikal müxalifət partiyaları, özünü Milli Şura adlandıran bədnam qurumda toplaşmış antimilli ünsürlər vaxt-vədə yetişdikdə demokratiyanın əsas postulatlarından olan seçki prosesində iştiraka nədənsə həvəsli görünmür, ya da iştirak edərək biabırçı məğlubiyyətə uğrayıb tamamən iflasa uğramamaq üçün əsas vətəndaş hüquqlarından birindən imtina edirlər, çox vaxt da boykot yolunu tuturlar. Bilərək ki, seçkilərdən müxtəlif bəhanələrlə imtina həmin partiyalarda təmsil olunan vətəndaşların seçib-seçilmək kimi əsas konstitusion hüquqlardan birinin məhdudlaşdırılmasıdır. Amma buna baxmayaraq, radikal müxalifət funksionerləri, xüsusən AXCP və Milli Şuranın başbilənləri hər seçki prosesindən ya az əvvəl, ya da az sonra, ya da ölkəmizin qazandığı müəyyən uğurların ardınca tamamilə aydındır ki, xaricdəki havadarlarından və onların yerli emissarlarından aldıqları sifariş, təlimat əsasında hakimiyyət orqanları ilə ultimativ danışıq üslubu seçərək qanunsuz və qəbuledilməz tələblər irəli sürürlər. Daha çox yaz-payız aylarına təsadüf edən, mövsümi yoluxucu xəstəliklər kimi radikalları sarmış bu saxta, islaholunmaz "mitinqçilik" mərəzi növbəti dəfə özünü bələdiyyə seçkiləri ərəfəsində göstərib.

Son vaxtlaradək əsas işləri əllərindəki trol şəbəkəsi vasitəsilə internet və sosial şəbəkələr üzərindən hakimiyyətin dalınca qeybət etmək, dedi-qodu xarakterli söhbətlər danışaraq vaxtlarını "öldürmək" olan Milli Şuranın rəhbərləri, xüsusən cəbhəçilərin lideri "mühacir" jurnalistikanın "görkəmli" və "yaraşıqlı" təmsilçisi Osmanqızının "Youtube" kanalındakı səhifəsini "şərikinə" işlədirlər. Maraqlı xarici kəşfiyyat dairələrin anti-Azərbaycan layihələrində baş rollardan birini ifa edən xanım Osmanqızının sirli təbəssümü və işvəli sözlərindən, atmacalarından vəcdə gələn, elə yaşadığı mənzildə məşhur bir teletamaşada olduğu kimi, "Əli bəyin studiyasını" açmış Əmirhüseyn kişinin oğlu günün istənilən vədəsində gündəmdəki məsələlərə "hərşeyşünas" ekspert qismində müxtəlif şərhlər verir, xüsusi canfəşanlıqla "xalqın" mitinq, sərbəst toplaşmaq hüququnun özünə qaytarılmasından danışır, buna görə də Bakı Şəhər İcra Hakimiyyətindən başının pozuq dəstəsi ilə ultimativ tərzdə yer ayrılmasını tələb, bu məqsədlə hətta qanunla qadağan olan yerlərdə də aksiyalar keçirilməsində israr edir. Bu aralarda partiya sədrliyindən daha çox videobloger, yaxud sadəcə bloger kimi fəaliyyət göstərən əsas "cəbhəçi"nin eyni prosesləri Yaxın Şərqdə, yoxsa postsovet məkanındakı məlum proseslərdən yararlanaraq idarə edəcəyi şübhəli görünür, çünki adamın bir neçə yüz trolluq atım "barıtı"nın qalması birmənalıdır...

Əvvəlki təcrübədən də bəllidir ki, xaricdəki himayədarlarının çabaları da daxil olmaqla, AXCP, Milli Şura adlı qondarma qurum indiyədək, məsələn, "Məhsul" stadionunda keçirdikləri mitinqlərdə üst-üstə 2-3 mindən çox iştirakçı toplaya bilməmişdir. Bu səhnə, ələ və sözə baxan, əcnəbi dairələrin əlində aranı qarışdırmaq üçün maşaya çevrilmiş "cəbhəkratiyanı"n nə qədər rəzil və acınacaqlı duruma düşməsinin göstəricisidir.

Sonuncu dəfə paytaxt meriyası bəhanələrini kəsmək, sərbəst toplaşmaq azadlığı mövzusunda radikalların yalanlarını durdurmaq üçün centlmensayağı bir addım ataraq lap elə ŞİH-in qulağının dibində gerçək, şanlı tarixi olan Milli Şura banilərinin xatirəsinə ucaldılmış abidənin qarşısında cari il oktyabr ayının 8-də 50 nəfərlik piketin təşkilinə dair Kərimli və komandasının xahişini nəzərə alıb və razılığını da verib. Lakin qabaqcadan da proqnozlaşdırıldığı kimi, cəbhəçilərin sədri də daxil təşkilatçıların iştirak etmədikləri piketi birincilər şəhərin mərkəzində əslində polis-vətəndaş qarşıdurmasına çevirib, bəlli mərkəzlərə və çevrələrə operativ şəkildə dezinformasiyalar ötürüb, əvəzində bir "molodes" və növbəti təxribat layihələri üçün maddi vəsait almağa ümidli idilərsə də asayişi mühafizə qüvvələrinin aşkar təmkinli, mədəni davranışı və peşəkarlığı, vətəndaşlara həssas münasibəti müəyyən təxribat ssenarilərinin qarşısını aldı. Aksiyaçıların müəyyən qismi, Kərimlinin guya piketi müşahidə bəhanəsi ilə həmin məkana sosial şəbəkə üzərindən çağıraraq əslində mitinq təşkil etməyə çalışdığı, beləliklə də, sonuncuları polis əməkdaşları ilə qarşıdurmaya cəlb etmək istədiyi tərəfdarlarının gücü isə mərkəzdəki zibil urnalarını aşırmağa yetdi.

Həmişə belə olur...Hakimiyyət orqanlarının demokratik prinsiplərə hörmət göstərməsi, qanun və ədalət, humanizm mövqeyindən çıxış etməsi qarşı tərəfdə nədənsə yanlış olaraq "bizdən qorxdular, çəkindilər" formasında başa düşülür. Son illərin praktikasında ilk dəfə şəhərin mərkəzində piket keçirməyə rəsmi razılıq alsalar da onu növbəti dəfə hakimiyyətə qarşı uğursuz və ucuz piar-şouya çevirmək cəhdi cəbhəçi-şuravi "elita"nın islaholunmazlığının növbəti nümayişi oldu. Piketə dair icazəni zəiflik kimi qəbul edənlər paytaxtın icra və polis orqanlarının səbrindən, nümunəvi davranışından sui-istifadə edərək növbəti kütləvi aksiyanı metronun "28 May" stansiyasının ətrafında keçirmək istəyi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edərkən də normal məntiqə və düşüncəyə malik olan istənilən şəxsə aydın idi və ya aydın olmalıydı ki, göstərilən məkan heç bir halda mitinq və ya digər kütləvi aksiya keçiriləcək yer deyil. Əksinə, əgər cəbhəçi-şurəvi məsulların doğrudan da dərdləri daim şikayətləndikləri sərbəst toplaşmaq haqlarından istifadə etmək idisə, bunu onlar qanunla rəsmən qadağan edilmiş məkanda, strateji əhəmiyyətli dövlət obyektinin düz qarşısında, əhalinin sıx, nəqliyyat intensivliyinin gur olduğu yerə bitişik ərazidə təşkil etməli deyildilər. Belə bir aksiyanın hətta nəzəri cəhətdən təşkili aidiyyəti dövlət, hüquqmühafizə orqanlarını insanların təhlükəsizliyi baxımından əsaslandırılmamış risklə, vətəndaşların həyatlarını böyük təhlükə ilə üz-üzə qoya bilərdi.

Bu sadə və adi həqiqəti kimsə bilməsə də, millətə bir çox mətləblərdən dərs keçməyə öyrəncəli olmuş Şurayi-Millinin başbilənlərindən keçmiş komsomolçu, dünənki cəbhəçi, bu günün neobolşeviki, hakimiyyət, mənsəb və pul hərisliyi həmişə başına bəla olsa da sudan quru şıxmağa adətkərdə olmuş, radikal cameədə intriqa rüzgarı əsdirməyin ən mahir bilicilərindən, siyasi boşboğazlığı, populizmi və demoqogiyası ilə yalnız virtual aləmdə baş qatan, ixtisasca hüquqşünas olan birisi-yoldaş Kərimli təbii ki, bilirdi. Onu da bilməmiş deyildi ki, paytaxt sakinlərini hakimiyyət nümayəndələri ilə qarşıdurmaya, vətəndaş itaətsizliyinə, kütləvi iğtişaşlara, əslində qanunçuluğun kütləvi şəkildə pozulmasına səsləmək və hər vəchlə buna sürükləmək ən azından inzibati məsuliyyət doğurur. Universitetin hüquq məzunu olan birisi üçün belə məsuliyyətsiz publik çağırışlar etmək, qanunları görməzdən gəlmək isə yumşaq desək, bağışlanılmaz qəbahət, cinayətə bərabər məsuliyyətsizlik, şəxsi qisasçılıq, revanşist hislərini, korporativ maraqlarını milli və dövlət maraqlarından üstün tutmaq cəhdidir.

Yeri gəlmişkən, başabəla sədrin-hüquqçunun hüquq elminin əlifbası ilə heç bir əlaqəsi olmayan cəfəng iddiaları bununla bitmir. 19 oktyabr öncəsi polis əməkdaşlarına müraciət edən adam guya təəssübkeşlik edirmiş kimi asayiş keşikçilərinə dünyanın gərdişindən, gəlib-keçmişindən, cəmiyyətdəki bərabərsizlikdən bəhs edərək əsas mətləbə keçir, "səhv mövqe tutmamağa", "millətə qoşulmağa", "siyasi sifarişi yerinə yetirməməyə" çağırış bəhanəsi ilə onları faktiki əmrə tabe olmamağa təhrik edir.

Son 20 ildə müxalifətin radikal kəsiminin mitinq, yürüş sərgüzəştlərinə şahidlik etdiyimizdən bu müddət ərzində həmin cameənin liderlərinin polisə yönəlik çoxsaylı müraciətlərini görmüşük. Belə psevdomüraciətlərin hələ o zamanlar da respublikamızda sabitliyin, əmin-amanlığın qorunmasında maraqlı olmayan, burada sözəbaxan bir oyuncaq rejimin hakimiyyətə gəlməsi üçün "səylər" göstərən əcnəbi dövlətlərin və dairələrin mətbəxində hazırlandığı şübhə doğurmayan məşhur "Müxalifətin mitinq taktikası" adlı bir bədnam sənədin mahiyyəti və məğzi ilə eyniyyət təşkil etməsini də nəzərdən qaçırmaq olmaz.

Son müraciətində oktyabrın 8-də Bakının mərkəzində keçirilmiş icazəli piketdə "Azərbaycan Polisində peşəkarlığa doğru canatmanı" gördüyünü nəhayət ki, dilə gətirməyə bəlkə də məcbur olan cəbhəçibaşı gecikmiş, lakin sözünün altında da bir "əmması" olan belə bir etirafı etdisə də bu, onun səmimiyyətindən, əməkdaşlara olan hansısa sevgisindən deyil, etdiyi, yaxud törədə biləcəyi hüquq pozuntularından özünü sığortalamaq, qabaqdangəlmişlik etməsindən irəli gəlir. Adam radikal cameənin mitinqlərində illərdir polislə yanaşı addımlayır, bu müddətdə onun peşəkarlığının yüksəldiyini etiraf edir, lakin yaxından tanıyanların, dünənki məsləkdaşlarının, tələbə yoldaşlarının etiraflarına görə, bu şəxs riyakarlıq, pul və hakimiyyət hərisliyindən, əqidədaşlarının və tərəfdarlarının gözlərinin içinə baxaraq yalan söyləmək, iftira və böhtan atmaq, arxadan zərbə vurmaq və s. bu kimi xarakterik mənfi cəhətlərindən, daha doğrusu, artıq gündəlik həyat, yaşam tərzindən qurtulmayıb və belə bir ehtimal yaxın gələcək üçün də görünmür.

Cəbhəçibaşı "mənzil-qərargahındakı" studiyasından, sosial şəbəkəsindəki səhifəsindən insanları de-fakto və de-yure olaraq qanunları, cari il oktyabrın 19-da "28 May" metrostansiyasının qarşısında toplaşmağa səsləməklə onların təhlükəsizlik, istirahət və digər təbii hüquqlarını pozmağa açıq çağırış edir, azsaylı tərəfdarlarının qınağına tuş gələcəyindən ehtiyatlanaraq məcburiyyət qarşısında yaşadığı evi tərk edərək məlum olayla əlaqədar sosial şəbəkələrdə yayımlanmış kadrlardan da göründüyü kimi, aşkar qorxu içində və həyəcanlı şəkildə, necə deyərlər, sarsınıb udmuş halda, əsasən xanım jurnalistlərin əhatəsində icazəsiz mitinqin keçiriləcəyi yer istiqamətində bir neçə yüz metr hərəkət edir, peşəkarlığın da vurğuladığı polisin ətrafındakı vətəndaşlarla olduqca kübar, mədəni və təmkinli davranışından özünə gələrək ənənəvi ampluasına qayıdır. Burada o, artıq neçənci dəfə ictimai asayişin kobud şəkildə pozulmasına yönələn hərəkətləri davam etdirdiyindən əməkdaşlar tərəfindən saxlanılaraq polisin xidməti avtomobilinə mindirilir.

**Məqalə ilə geniş şəkildə baki-xeber.com-da tanış ola bilərsiniz.**

# Avroparlamentdə anti-Azərbaycan şəbəkəsi yeni revanşa qalxdı - qanunsuz aksiyalara ikili yanaşma yenə gündəmdə...

**Avropa Parlamentinin sosial demokratlardan ibarət olan ən böyük siyasi alyansı Azərbaycanla danışıqların dayandırılmasını tələb edir. Bunu da 19 oktyabrda Bakıda keçirilən icazəsiz aksiyanın qarşısının alınması ilə izah etməyə çalışır. Məlumatı erməni KİV-i alyansın saytına istinadən yayıb.**

*"Fikir verdinizsə, birinci icazəsiz aksiyanı Əli Kərimli etdi, ikincidə İlqar Məmmədov göründü"*

Maraqlıdır ki, alyans icazəsiz mitinq cəhdindən sonra baş verən qadın aksiyasını da narazılıqları siyahısına əlavə edib. Qeyd edilir ki, guya hər iki aksiyanın dağıdılmasında zorakılığa yol verilib, çoxlu sayda adam həbs edilib.

Müraciətdə qeyd edilir ki, bütün bu hallara görə Avropa Parlamenti Azərbaycan hakimiyyəti ilə danışıqları və gələcək münasibətləri kəsməlidir. Göründüyü kimi, Avropa Parlamentindəki bəzi qüvvələr yenə Azərbaycana qarşı ikili standartlarla yanaşırlar. Bu günlərdə Brüsseldə etiraz aksiyasının yatırılmasında istifadə olunan kobud metodlardan danışmaq əvəzinə, Bakıdakı hadisələri yanlış təsvir edirlər. Avropa İttifaqında səslənən bu mövqeni necə izah etmək olar?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə bildirdi ki, bunu Avropa İttifaqının rəsmi mövqeyi saymaq olmaz: "Hər hansı bir alyansın belə müraciət etməsi mümkündür. Ancaq maraqlı olan məsələ bu hadisələrin zəncirvari şəkildə bir-birilə əlaqəli olmasıdır. Həmin alyansın bəyanatını həmin dəqiqə erməni KİV-nin tirajlaması da təsadüfi deyil. Onlar daim ermənipərəst mövqeləri ilə seçiliblər. Hər zaman Avropa Parlamentində Azərbaycana qarşı lobbiçilik ediblər. Bakıda iki aksiyanın dalbadal keçirilməsi və hər ikisinin icazəsizliyi bir daha sübut edir ki, proseslər vahid mərkəzdən idarə olunub. Fikir verdinizsə, birinci icazəsiz aksiyanı Əli Kərimli etdi, ikincidə İlqar Məmmədov göründü. İlqar Məmmədov nə vaxtdan qadın hüquqlarının qoruyucusu olub? Deməli, proseslər sırf Azərbaycana təzyiq aləti qazanmaq üçün idarə olunub. Hər iki aksiya zamanı iştirakçıların polisi necə provokasiyaya çəkdikləri açıq görünür. Aksiyalardan dərhal sonra Qərbdən verilən sərt bəyanatların da ard-arda olması çox detaldan xəbər verir. Belə bir müraciətlə Azərbaycanla Avropa İttifaqı arasındakı danışıqları dayandırmaq mümkün deyil. Çünki Azərbaycan Avropa İttifaqı ilə bərabər partnyor kimi çıxış edir. Sizi əmin edirəm ki, biz Avropaya daha çox lazımıq. Belə müraciətlər yalnız könül bulandıra bilər, əməli nəticəyə səbəb ola bilməz. Ancaq Avropa qurumlarının da qərəzli münasibətini xüsusi qeyd etməliyik. Avropanın lap göbəyi sayılan Strasburqdakı aksiyada polislərin davranışları ilə Bakıdakını obyektiv müqayisə etsələr, hansı dərəcədə qərəzə yuvarlandıqlarının şahidi olarlar. Bütün dünyada icazəsiz aksiyalarla mübarizə aparılır. Azərbaycan polisi və dövləti də bu məsələdə qanun çərçivəsində davranıb".

***Yeganə Hacıyeva:** "Bakıda iki aksiyanın dalbadal keçirilməsi və hər ikisinin icazəsizliyi bir daha sübut edir ki, proseslər vahid mərkəzdən idarə olunub"*



**Məhəmmədəli QƏRİBLİ**

# Qarabağda yeni erməni partiyası - Paşinyanla separatçıların döyüşü yeni mərhələyə çıxır

**Məlum olduğu kimi, Ermənistan hakimiyyəti və "Qarabağ klanı" arasında kəskin münaqişə mövcuddur. İşğal edilmiş ərazilərimizə rəhbərlik uğrunda mübarizə son vaxtlar klanlararası çəkişmələri daha da artırıb. Nəzərə almaq lazımdır ki, gələn il separatçı qurumda qondarma "prezident seçkiləri" keçiriləcək.**



***Mübariz Əhmədoğlu:** "Paşinyan çalışır ki, Masis Mailyanı seçdirsin"*

Paşinyan çalışır ki, ona yaxın olan şəxsi separatçı qurumun başına gətirsin.

Bu arada işğal altındakı torpaqlarımızdakı separatçı-terrorçu ermənilər daha bir qanunsuz partiya yaradıblar. Erməni mətbuatının yaydığı məlumata görə, qondarma separatçı rejimin "xarici işləri" ilə bağlı qanunsuz quruma rəhbərlik edən Masis Mailyanın rəhbərliyi ilə "Artsaxın sabahı" partiyası təsis edilib. 500 erməni pasportları ilə gələrək partiyanın qeydiyyatdan keçməsi üçün səs veriblər.

Məlumat üçün qeyd edək ki, M.Mailyan 2020-ci ildə keçirilməsi planlaşdırılan qanunsuz "prezident seçkiləri" üçün namizədliyini irəli sürüb. Onun işğalçı ölkə Baş naziri N.Paşinyan tərəfindən dəstəkləndiyi bildirilir. "Qarabağ klanı"nın əsas namizədi isə separatçı rejimin keçmiş "dövlət naziri" sayılan Araik Arutyunyandır. Bundan başqa, belə məlumat var ki, Vitali Balasanyan da quruma rəhbərlik etmək istəyir. Qeyd edək ki, V.Balasanyan Paşinyan hakimiyyətinə qarşı kəskin mövqedən çıxış edən şəxsdir. Son vaxtlar V.Balasanyan siyasi fəallığını bir qədər də artıraraq müxtəlif açıqlamalarla çıxış edir. M.Mailyanın yeni partiya təsis etməsi fonunda Paşinyanla Qarabağ separatçılarının yeni mübarizəsi başlayır. O baxımdan bütün bunları ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, Qarabağ erməniləri gedən proseslərdən çox narahatdırlar: "Bu narahatlığın nəticəsidir ki, separatçı qurumda son dövrlər əlavə təxminən 20-yə yaxın partiya yaranıb. Dağlıq Qarabağ ermənilərinin xarakteri Ermənistan ermənilərindən fərqlidir. Ən başlıcası isə, İrəvan erməniləri ilə Qarabağ erməniləri arasında nifaq böyükdür. Son dövrlər separatçı qurumda çoxsaylı siyasi təşkilatın yaranması Ermənistandan narazılığın göstəricisidir. Görünən odur ki, Paşinyan hər vasitə ilə separatçı qurumu nəzarəti altına salmağa çalışır. O görür ki, Dağlıq Qarabağda əsas namizəd Araik Arutyunyandır. Çünki o, yerli qurumlara keçirilən "seçkiləri" uddu. Bu səbəbdən real güc onun əlindədir. Bu səbəbdən onun şansı daha böyükdür.

*"İstənilən halda, klanlararası narazılığın bir az da artacağı gözlənir"*

Paşinyan isə çalışır ki, M.Mailyanı seçdirsin. M.Mailyanın isə Dağlıq Qarabağda elə də nüfuzu və dayağı yoxdur. Onun, sadəcə, müəyyən intellektual səviyyəsi və danışıq qabiliyyəti var. Baxmayaraq ki, o özü əslən Dağlıq Qarabağdandır, Paşinyan istəyir ki, onu seçdirsin və idarə etsin. Ancaq, istənilən halda, klanlararası narazılığın bir az da artacağı gözlənir. Paşinyan şərait yaranan kimi, A.Arutyunyana qarşı zor tətbiq edəcək. Ona görə də tərəflər arasında gərginliyin daha da artacağı gözlənir".

**Vidadi ORDAHALLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# BMT-də bir söz, Xankəndidə başqa söz deyən "rəhbər" - Ermənistana sərt Qarabağ xəbərdarlığı...

**Dağlıq Qarabağ münaqişəsinin həll prosesinin dalana dirənməsinin savaş ehtimalını artırmasına dair artıq beynəlxalq miqyasda da ciddi həyəcan təbili çalınır. Etiraf olunur ki, Ermənistan rəhbərliyi açıq surətdə danışıqları dalana yönəltməyə çalışır. Belə vəziyyətdə Azərbaycan ən yüksək səviyyədə xəbərdarıq edib ki, Ermənistan rəhbərliyinin bu cür davranışı və hərəkətləri gözlənilməz nəticələrə səbəb ola bilər.**

Yəni Azərbaycanın bu durumda istənilən an güc yolu ilə işğala son qoyması mümkündür.

Hadisələrin bu səpkidə inkiaşfının qarşısının alınmasının yeganə yolu isə Ermənistanın konstruktiv mövqeyə gəlməsi üçün ona təzyiqlərin artırılmasından keçir. Bunu avropalı hərbi ekspert Treysi German da xüsusi olaraq vurğulayır: "İrəvanın Qarabağ məsələsində mövqeyi sadəcə müharibəni tətikləməkdən başqa heç nəyə xidmət etmir. Çünki Ermənistan Azərbaycanla müqayisədə olduqca zəifdir. Təkcə hərbi xərclərə diqqət yetirməklə də bunu görmək olar. Adətən Qarabağ kimi münaqişələrin təmkini üçün tərəflər güc balansını qorumağa çalışırlar ki, tərəflərdən biri digərinə qarşı böyük üstünlük əldə etməsin. Bu, münaqişəni təmkinli etmək üçün hədsiz dərəcədə vacibdir. Əlbəttə, bu, qeyd edilən ölkənin imkanlarından, resurslarından asılıdır. Bu mənada, balans status-kvonun saxlanması zəmanətlərindən biridir. Lakin indiki vəziyyətdə Ermənistan Azərbaycanla aralarındakı fərqi qətiyyən azalda bilməz. Əksinə, Azərbaycan daha sürətlə önə çıxır.

Bir halı da müşahidə etmək lazımdır ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hazırda konstruktiv danışıqlar yoxdur. Yəni danışıqlar var, lakin hansısa razılıq yoxdur, tərəflər təhdid mübadiləri aparır, cəbhə xəttində zaman-zaman qurbanlar, yaralılar qeydə alınır, gərginlik alovlanır və bu, müharibənin yenidən başlaması təhlükəsidir. Belə şəraitdə Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlanması Ermənistana çox ciddi zərbə olar və rəsmi İrəvan bunu nəzərə almalıdır". Rusiyanın Hərbi Proqnozlar Mərkəzinin rəhbəri, hərbi ekspert Anatoli Tsiqanyuk isə qeyd edir ki, Ermənistan burada həm də güclü Azərbaycan qarşısında yalnız olduğunu unutmamalıdır. O, artıq Rusiyanın Ermənistiandan üz döndərdiyini və günahkarın da İrəvan özü olduğunu qeyd edir: "Ermənistanda tendensiyalar Rusiyanın xeyrinə deyil, söhbət proseslərdən gedir. Təbii ki, bu, ikitərəfli əməkdaşlıq və təhlükəsizlik münasibətlərinin xeyrinə deyil.

Belə şəraitdə Qarabağ bölgəsində dramatik inkişafların olacağı mümkündür. Bakı mövqelərini yeni geosiyasi durumda xeyli möhkəmləndirib. Danışıqlar masasında nəticələrin olmamasına görə ritorika gərginləşir". Ekspertin sözlərinə görə, bu, həll edilməmiş münaqişənin mövcudluğu halında narahatedicidir: "Lakin mənim üçün Ermənistanın təhlükəsizliyi ilə əlaqəli olan daha narahatedici digər hallar var. Məsələ burasındadır ki, hazırkı Ermənistan hökumətində keçmişdə Vaşinqtonla əməkdaşlıq etmiş və ya hazırda əməkdaşlıq edən xadimlər var. Ermənistanda məsələ qaldırılır ki, Ermənistanda rus hərbi bazası olmamalıdır. Bu o deməkdir ki, kimsə amerikalıların problemini həll edir. Çünki amerikalılar hesab edirlər ki, Ermənistanda rus hərbi bazası olmamalıdır və bu, Ermənistan üçün son dərəcə pisdir". Ekspert bildirib ki, Ermənistanda hökm sürən vəziyyət Rusiya üçün getdikcə daha pis olur: "Tendensiyalar Rusiyanın xeyrinə deyil, söhbət proseslərdən gedir. Təbii ki, bu, ikitərəfli əməkdaşlıq və təhlükəsizlik münasibətlərinin xeyrinə deyil. Amma Ermənistan burada Azərbaycan qarşısında çox zəif mövqeyə düşəcəyini də yaddan çıxarmamalıdır".

Beynəlxalq səviyyədə edilən bu xəbərdarlıqların nəticəsi olacağına dair Ermənistanın özündə də narahatlıqlar az deyil. Məsələn, "Mənim Addımım" fraksiyasının deputatı Tatev Hayrapetyan bildirib ki, Azərbaycan ilk fürsətdəcə onları əzməyə hazırdır: "Biz Bakının istənilən mümkün ssenarisinə hazır olmalıyıq". O qeyd edib ki, Azərbaycan hər an əməliyyatlara başlaya bilər və Ermənistan hər halda Bakının istənilən mümkün ssenarisinə hazır olmalıdır. Amma Ermənistan Respublika Partiyasının təmsilçisi Eduard Şarmazanov bildirir ki, ölkəsi Azərbaycanla qarşıdurmaya hazır deyil və bu, Azərbaycana da yaxşı məlumdur: "Biz regionda təklənmiş vəziyyətdəyik. Baş nazir Nikol Paşinyan Ermənistan-Rusiya münasibətlərinin parlaq olduğunu və Qarabağ məsələsində yeni konsepsiyanın formalaşdırılmalı olduğunu bildirib. Paşinyanın konsepsiyası nə Ter-Petrosyanın, nə Robert Köçəryanın, nə də Serj Sarkisyanın konsepsiyasının davamıdır. Biz elə də görmədik ki, onun konsepsiyası hansıdır. Bəlkə də bu, Düşənbə liftində qaranlıq razılaşmaların əldə olunmasıdır. Lakin bir şey aydındır ki, müttəfiq ölkəmiz xarici işlər nazirinin dodaqları ilə "Valday" klubunda danışıqları qeyri-konstruktiv kursla apardığı üçün Ermənistan rəhbərliyinə ittiham səsləndirir. Keçmiş üç prezident dövründə hansısa həmsədr ölkənin xarici işlər naziri Ermənistan hakimiyyətinin ünvanına birbaşa olaraq bu kimi ittiham səsləndirməyib". Şarmazanov qeyd edib ki, Paşinyanın bəyanatından sonra həmsədr ölkələr Paşinyana sarı vərəqə göstərdi, Sergey Lavrov isə danışıqları qeyri-konstruktiv kursla aparmaqda Ermənistan hakimiyyətinin ünvanına birbaşa mətnlə ittiham səsləndirdi: "Bu, Azərbaycana kart-blanşdır və bunun günahkarı bugünkü hakimiyyətdir. Mən heç vaxt Qarabağ məsələsində birinci prezidentin tərəfdarı olmamışam, lakin düzgünlüyə hörmət edən xadiməm. Levon Ter-Petrosyan ölkəmizin ilk prezidentidir, onun öz fikri olub, Paşinyandan fərqli olaraq, xoşumuza gəlməyən fikrini ən azından açıq söyləmək cəsarəti var. Lakin Paşinyan, Ter-Petrosyandan fərqli olaraq, diametrik şəkildə fərqli şeyi deyir. Biz səhər bir şey deyən, axşam tamamilə başqa bir şey söyləyən, BMT tribunasında bir söz, Xankəndidə isə fərqli söz danışan rəhbərin dövründə yaşayırıq. Bu rüsvayçılıqdır. Dövlət xadimi proqnozlaşdıra bilən olmalıdır. Müxalif Paşinyan səhərdən axşama qədər KTMT-ni tənqid edə bilməz ki, bu gün ölkənin baş naziri olaraq KTMT konfranslarında 11 dəfə "spaspio" xərcləsin. Belə olmur - sən ya tərəfdarsan, ya dostsan, ya da qarşısan. Paşinyanın siyasətinə görə, Ermənistan təklənib. Azərbaycan isə əksinə, Rusiya ilə daha da yaxınlaşır, yeni tərəfdaşlar qazanır".

Erməni hərbi ekspert Karen Vrtanesyan da eyni mövqeni bölşür. Onun sözlərinə görə, Ermənistan rəhbərliyi vahimə içindədir: "Çünki Ermənistan hakimiyyəti Azərbaycanla hərbi balansı və bizim strateji tərəfdaşımız olan Rusiyanın dəstəyi və vasitəçiliyini itirib. Ermənistan ümumilikdə bütün təhlükəsizlik fəlsəfəsini itirib. Artıq bilirik ki, Azərbaycanın 2020-ci il üçün büdcə layihəsinə əsasən, müdafiə xərcləri 3 milyard 853 milyon manat, təxminən 2 milyard 267 milyon dollar təşkil etməlidir ki, bu da ötən ilin 3 milyard 187 milyon manatından 20,9 faiz çoxdur. Azərbaycanda büdcə artması rəsmi olaraq iqtisadi artımla izah olunur. Eyni format 2019-cu ilin iyununda cari ilin büdcəsində, o cümlədən müdafiə xərclərinin artırılmasında verilmişdi. Lakin müharibəyə hazırlaşan ölkə üçün hərbi büdcənin artırılması məntiqlidir. Azərbaycan heç vaxt Qarabağ problemini hərbi yolla həll etmək istəyini gizlətməyib". Vrtanesyan qeyd edib ki, Ermənistanın hərbi xərcləri Azərbaycanın hərbi xərclərindən geri qalır: "Lakin biz ümumi büdcəmizə və iqtisadi artımımıza uyğun dərəcədə müdafiə xərclərimizi ardıcıl olaraq artırmalıyıq. Ümumi büdcə artımına paralel olaraq müdafiə xərcləri də ən azından eyni mütənasibliklə artmalı idi. Amma bunu edə bilmirik. Üstəlik, bu şəraitdə Rusiyanın da dəstəyini itirməyimiz bizi çıxılmaz vəziyyətə salır".

Beləliklə, Rusiyanın dəstəyinin itirilməsi və Azərbaycanın hərbi xərclərini artırması indi Paşinyan iqtidarı üçün ciddi ittiham mənbəyinə çevrilib. Paşinyan və tərəfdarları bu vəziyyətdə özlərini daha çətin müdafiə edirlər. "Mənim Addımım" fraksiyasının deputatı, Ermənistan parlamentinin iqtisadi məsələlər üzrə daimi komissiyasının üzvü Hayk Sarkisyan 2020-ci il üçün dövlət büdcəsində ölkəsinin hərbi müdafiə xərclərinin 0,8% artırılması məsələsinə toxunarkən bu xüsusda bildirib: "Büdcə vəsaitləri vergi ödəyicilərinin verdiyi vergilərdən formalaşır və hərbi müdafiə xərclərinin artırılması ölçüsü hökumətdən asılı deyil. Hökumətimiz gəlirləri bərabər paylayır və onları xərclərə çevirir. Bu, yalnız bizim hökumətimizin məsələsi deyil. Əvvəlki illərdə də Azərbaycanın hərbi müdafiə büdcəsinin artırılması Ermənistanın hərbi müdafiə büdcəsinin artırılmasını üstələyib". Erməni deputatın sözlərinə görə, hökumət vəsaitlərin qiymətləndirilməsini, xərclərin həyata keçirilməsini və büdcə paylanmasını ehtiyaclara, zərurətə görə yerinə yetirir: "Məsələn, yolların təmiri hərbi əhəmiyyətə malikdir. Elə xərclər var ki, onlar Müdafiə Nazirliyinə göndərilmir, lakin dolayı yolla ölkəmizin müdafiə möhkəmliyini yüksəldir". Amma düşmən ölkədə bəyan edilir ki, hakimiyyət tərəfdarlarının arqumenti qətiyyən əsaslı deyil və Azərbaycanın artan üstünlüyünü belə cəfəng formada pərdələmək hakimiyyəti gülünc vəziyyətə salır. O da bildirilir ki, yaranmış vəziyyətdə Azərbaycanın istənilən an hərbi əməliyyata başlayıb lazımi nəticələr əldə etməsinə erməni cəmiyyəti hazır olmalıdır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Məşğulluğu, artan əhalini işlə təmin etmək üçün şərait yaradılmalıdır. Bunu Prezident İlham Əliyev Şahin Mustafayevi yeni vəzifəyə - Baş nazirin müavini təyin olunması ilə əlaqədar qəbul edərkən deyib. Ölkə başçısının sözlərinə görə, iqtisadi artım demoqrafik artımı üstələməlidir:**

# Azərbaycanın iqtisadi artımı demoqrafik inkişafı üstələyə bilməsə... Prezident hansı problemlərdən yan keçməyi hədəflədi...



"İşsizlik Azərbaycanda aşağı səviyyədədir. Ancaq buna baxmayaraq, işsizlik arta bilər. Nəyə görə? Əhali artır və əgər iqtisadi inkişaf artan əhalinin templəri ilə uzlaşmasa, əlbəttə ki, gələcəkdə bizi bir çox problemlər gözləyə bilər. Biz isə öz siyasətimizi strateji hədəflər əsasında qururuq. Bizim siyasətimiz uzunmüddətlidir və siyasətimizin əsas qayəsi odur ki, dayanıqlı inkişaf təmin edilsin. Cənubi Qafqazda bizdən başqa digər ölkələrdə demoqrafik artım yoxdur. Ona görə o ölkələrdə bizim üzləşdiyimiz problemlər də mövcud deyil. Mən dəfələrlə demişəm ki, bizim iqtisadi artımımız

## *Rəsul Cahangirli: "İqtisadi artım demoqrafik artımı üstələməsə, o zaman işsizlərin sayı artacaq"*

demoqrafik artımı üstələməlidir. Buna nail olmaq üçün biz yeni artım mənbələri aşkar etməliyik. Onlardan biri kölgə iqtisadiyyatına qarşı mübarizədir".

Prezidentin fikrincə, qeyri-neft sektorunda ehtiyatlar kifayət qədər böyükdür. Özəl sektorun iqtisadi sahədə payı yüksək olsa da, qeyri-neft ixracı hələ ki, çox aşağı səviyyədədir. Ona görə də qeyri-neft sektoru və qeyri-neft ixracı artmalıdır.

Görünən odur ki, iqtisadi artımın demoqrafik artımı üztələməsi çox vacib məsələdir. Bunların uzlaşdırılması olduqca zəruridir. Bütün hallarda, Azərbaycan yaxın perspektivdə buna nail olmasa, nə baş verəcək? Buna nail olmaq üçün hansı zəruri işlər görülməlidir?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, iqtisadi artım demoqrafik artımı üstələməsə, o zaman işsizlərin sayı artacaq: "Prezidentin bu məsələyə xüsusi toxunması onun son dərəcə uzaqgörən siyasətçi olmasından irəli gəlir. Məsələ ondadır ki, nəinki Cənubi Qafqaz ölkələri, digər regionlarla müqayisədə

### *"Ona görə də çıxış yolu qeyri-neft sektorunun inkişafından keçir"*

Azərbaycanda demoqrafik artım göstəriciləri yüksəkdir. Ona görə də açılan iş yerlərinin sayı əhalinin artımına adekvat olmalıdır. Çünki Azərbaycanda ailə ənənələri yüksəkdir. Düzdür, sovet dönəmi ilə müqayisədə çoxuşaqlı ailələrin sayı xeyli azalıb. Buna rəğmən, ölkə əhalisi hər il artır. Elə ölkələr var orada əhalinin tərkibi qocalır. Yaşlı insanların çəkisi artır. Bu da, nəticə etibarilə, əhalinin azalmasına gətirib çıxarır. İqtisadi artımın demoqrafik artımı üstələməsinin yolu ölkədə qeyri-neft sektorunun inkişafından keçir. Nə qədər ki, ölkədə çoxşaxəli iqtisadiyyat formalaşmayıb, bunun öhdəsindən gəlmək mümkün olmayacaq. Ona görə də çıxış yolu qeyri-neft sektorunun inkişafından ibarətdir. Bunun üçün isə islahatlar daha da dərinləşdirilməlidir".

***Vidadi ORDAHALLI***

**Oktyabrın 22-də Daxili İşlər Nazirliyində bu il Polis Akademiyasını bitirmiş, sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət edən əməkdaşların paytaxtın polis orqanlarında vakant olan zabit yerlərinə təyin edilmələrinə həsr olunmuş tədbir keçirilib.**

# Müasir informasiya texnologiyalarına yaxın bələdçilik polis kadrlara hansı üstünlükləri təmin edir - nazirin tövsiyəsinə ekspert şərhi...



Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini xatırladıb və son illər bu praktikadan geniş istifadə olunduğunu bildirib. Nazir qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin gələcəyinin yüksək intellektə, geniş dünyagörüşünə, dərin biliyə və işgüzarlığa malik, mükəmməl təhsil almış, dövlətçiliyə sadiq, vətənpərvər gənclərdən asılı olduğunu dəfələrlə vurğulayıb. O deyib ki, ümumilikdə, kadrların hazırlıq səviyyəsinin artırılması, onların peşəkarlığa, xidməti borca sədaqətə görə vəzifədə irəli çəkilmələri, gənc əməkdaşlara lazımi diqqət və qayğı göstərilməsi ölkə və DİN rəhbərliyinin fəaliyyətində prioritet istiqamətlərdəndir. Tədbirə yekun vuran Daxili işlər naziri gənc zabitləri təbrik edərək onlara tapşırıq və tövsiyələrini verib. Qeyd olunub ki, bu gün uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, ölkəmizdə sabitliyin təmini, insan və vətəndaş hüquq və azadlıqla-

## *Mehman Muradlı: "Hazırda bütün transmilli cinayətkar qruplar öz fəaliyyətlərini internet üzərindən aparır"*

rının nümunəvi qorunması kursu daxili işlər orqanlarının da üzərinə böyük və məsul vəzifələr qoyur.

Vilayət Eyvazov gənc zabitlərə çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, daim bilik və təcrübələrini artırmalarını, öz üzərlərində işləmələrini, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

Göründüyü kimi, nazir gənc zabitlərə xüsusi olaraq ən müasir informasiya texnologiyalarına yiyələnmələrini və ondan istifadəni tapşırıb. Müasir informasiya texnologiyalarına bələdçilik polislərə xidmətdə hansı üstünlükləri qazandırır?

Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, cənab nazir yeni fəaliyyətə başlayan polislərə çox düzgün və lazımi məsləhət verib: "Biz düşünməliyik ki, texnologiya inkişaf etdikcə, cinayətlərin taktikası da dəyişir. Yeni cinayətin törədilməsi alətləri sırasına müasir İKT-dən istifadə də daxil olur. Bu baxımdan da polis zabitləri deyilən sahəni yaxşı mənimsəməlidirlər ki, onlarla mübarizə apara bilsinlər.

### *"İstər asayişin bərpası, istərsə də cinayətkarlıqla effektli mübarizə baxımından polislərin İKT biliklərinə yiyələnmələri vacibdir"*

Bilirsiniz ki, əməliyyat axtarış tədbirlərini, korrupsiya cinayətlərindən başqa, qanunçuluğun qorunmasını əsasən polis orqanları həyata keçirir. Müasir dünyada internet resurslarından istifadə etməklə oğurluq faktları geniş vüsət alıb. Bu baxımdan, polis əməkdaşlarının yüksək hazırlığı tələb olunur və cənab nazirin bu yönümdə atdığı addımlar cinayətkarları vaxtında ifşa etmək nöqteyi-nəzərdən lazımi tədbirdir. Digər bir məsələ də xakerlərlə bağlıdır. İndi sosial şəbəkədə istənilən şəxsin adından qeydiyyatdan keçməklə cinayətkar qruplar öz istəklərini həyata keçirə bilirlər. İnternet resursları vasitəsilə dələduzluq cinayətlərinin çoxluq təşkil etməsi nəinki əməliyyatçılara "başağrısı" verir, hətta istintaqçılar da bu məsələdə bəzən çarəsiz vəziyyətə düşürlər. Bir çox radikal çağırışlar da sosial platformalar üzərindən edilir. Yeni müasir polislər sosial şəbəkələrlə iş metodunu və biliklərini də yaxşı mənimsəməlidirlər. Hazırda bütün transmilli cinayətkar qruplar öz fəaliyyətlərini internet üzərindən aparırlar. İstər asayişin bərpası, istərsə də cinayətkarlıqla effektli mübarizə baxımından polislərin İKT biliklərinə yiyələnmələri vacibdir".

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident daha bir həlli vacib problemi ictimai müzakirəyə çıxardı - qeyri-neft sektorumuzda xarici sərmayələr...

***Rəşad Həsənov:** "Son üç ilin dinamikasına baxmış olsaq, həm qeyri-neft iqtisadiyyatına ümumi investisiya qoyuluşları, həm də birbaşa investisiya qoyuluşları istiqamətində davamlı olaraq azalma müşahidə olunub"*

**Ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sahəyə xaricdən isvestisiya cəlb edilməsi dövlətin əsas prioritetlərindən biridir. Məlum olduğu kimi, son illər Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsinə yönəlik mühüm işlər həyata keçirilir. Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyri-neft sektorunun inkişaf etdirilməli olduğunu önə çəkib.**

Dövlət başçısı oktyabrın 22-də Şahin Mustafayevi yeni vəzifəyə - Baş nazirin müavini təyin olunması ilə əlaqədar qəbul edərkən də qeyri-neft sektorunun inkişafının əsas prioritet olduğunu və bu sahəyə xarici sərmayənin cəlb edilməsinin vacibliyini qeyd edib: "...Ancaq hesab edirəm ki, biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. İqtisadi sahədə hələ də bir çox problemlər mövcuddur, o cümlədən, biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılmalıdır. Xüsusilə, ölkə iqtisadiyyatının qeyri-neft sektoruna xarici sərmayənin cəlb edilməsi sahəsində hələ ki, bir çox işlər görülməlidir. Düzdür, ölkə iqtisadiyyatına 270 milyard dollardan çox sərmayə qoyulub. Bunun yarısı xarici sərmayədir. Ancaq bu sərmayənin də böyük əksəriyyəti neft-qaz sektoruna qoyulan sərmayədir. Bizim vəzifəmiz xarici investorları inandırmaqdır ki, ölkəmizin qeyri-neft sektoruna daha böyük həcmdə sərmayə qoysunlar. Eyni zamanda, yerli şirkətlər üçün elə gözəl biznes iqlimi yaradılmalıdır ki, Azərbaycan şirkətləri ölkə iqtisadiyyatına böyük həvəslə sərmayə qoysunlar.

Biz onu da bilirik ki, hazırda iqtisadi inkişafımızın artımının əsas səbəblərindən biri dövlət investisiyalarıdır. Biz bunu edirik, etməliyik, infrastruktur layihələrinə, xidmət sektoruna, digər sahələrə. Ancaq ölkəmizin uğurlu dayanıqlı iqtisadi inkişafı bundan sonra özəl sektor hesabına təmin edilməlidir. Bu vəzifəni mən doqquz ayın sosial-iqtisadi yekunlarına həsr edilmiş müşavirədə səsləndirdim. Bizim əsas vəzifəmiz qeyri-neft sektorunu inkişaf etdirmək və məşğulluğu artırmaqdır. Bunun da çox sadə səbəbi var. Müstəqillik günündən bu günə qədər Azərbaycan əhalisi təxminən 3 milyon artıb. Bu həm böyük üstünlüyümüzdür, böyük sərvətimizdir, eyni zamanda, ölkə iqtisadiyyatına, o cümlədən, infrastruktura və sosial infrastruktura böyük yükdür. Yeni məktəblər, yeni uşaq bağçaları tikilməlidir, yeni yollar çəkilməlidir. Yolların çəkilişi üçün vaxtilə qanunsuz tikilən binalarda yaşayan vətəndaşlar köçürülməlidir. Onlara dövlət tərəfindən kompensasiya verilir. Kompensasiya onları qane etməlidir. Yəni biz bir çox xərclərlə üzləşirik".




*"...qeyri-ədalətli rəqabət mühiti formalaşır, bu isə xarici investisiyanın cəlb edilməsində əsas maneələrdəndir"*

Azərbaycanda indiyə qədər qeyri-neft sektoruna xarici sərmayənin tam olaraq cəlb edilməməsinin səbəbi nədir, buna hansı amillər mane olub?

Tanınmış iqtisadçı-ekspert Rəşad Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bunun səbəblərini açıqladı: "Bu sahədə kifayət qədər ciddi problemlər vardı. 2015-ci ildən sonra Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi, şaxələndirilməsi, dayanıqlığının artırılması ilə bağlı 12 istiqamət üzrə xüsusi strategiyalar qəbul edildi. Bu strategiyalar çərçivəsində xeyli mexanizm yaradıldı, qanunvericiliyə müvafiq dəyişikliklər edildi və s. Nəticədə nə baş verdi? Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyi xeyli irəlilədi. Yəni bu, məsələnin bir tərəfidir. İkinci tərəfi isə bunun nəticələri məsələsidir. Çünki beynəlxalq reytinqlərdə mövqenin irəliləməsi o deyil ki, hardasa pul üçün bu istifadə olunsun. Məqsəd odur ki, Azərbaycan iqtisadiyyatına investisiya qoyulsun. Yəni burada əsas indiqatorlardan biri ondan ibarətdir ki, iqtisadiyyata xarici investisiya gəlsin. Amma son üç ilin dinamikasına baxmış olsaq, həm qeyri-neft iqtisadiyyatına ümumi investisiya qoyuluşları, həm də birbaşa investisiya qoyuluşları istiqamətində davamlı olaraq azalma müşahidə olunub. Yəni biz islahat adı altında görülən tədbirlərin iqtisadiyyata transformasiya edilməsini müşahidə etmirik. Bunun da səbəbləri, təbii ki, böyükdür. Birincisi, iqtisadi islahatlar adı altında həyata keçirilən fəaliyyətlər, eyni zamanda, siyasi islahatlarla əhatə olunmalıdır. Çünki mövcud şərtlər tamamilə dəyişməlidir, məmur biznesi, himayə olunan biznes, inhisarçılıq, bu kimi problemlər tamamilə aradan qaldırılmalıdır. İqtisadiyyat liberallaşmadıqca, eyni zamanda, iqtisadiyyatda mülkiyyət hüququnun tam təmin edilməsi mümkün olmadıqca, məhkəmə sisteminin müstəqilliyi təmin edilmədikcə, biz Azərbaycan iqtisadiyyatına xarici investisiya cəlb edilməsini mümkün hesab etmirik. Bunu statistikada mövcud göstəricilər də təsdiqləyir. Bu istiqamətdə konkret addımların atılmasına ehtiyac var. Belə şərtlər daxilində də, təbii ki, inhisarçılıq və eyni zamanda, qeyri-ədalətli rəqabət mühiti formalaşır, bu isə xarici investisiyanın cəlb edilməsində əsas maneələrdəndir".

R.Həsənovun sözlərinə görə, nəzərə almaq lazımdır ki, bu gün heç bir investor, sadəcə, bir neçə hesabatdan məlumat almır, informasiya əsrində müxtəlif mənbələrdən informasiya əldə edilməsi mümkündür. Onun dediyinə görə, sadəcə, Dünya Bankının, Dünya İqtisadi Forumunun, Beynəlxalq Valyuta Fondunun, reytinq agentliklərinin açıqladıqları hesabatlar yeganə mənbə hesab olunmur, bundan əlavə, kifayət qədər alternativ mənbədən məlumatlar alan xarici investorlar, faktiki olaraq, ölkəyə gəlmir. "Halbuki, Azərbaycan iqtisadiyyatının kifayət qədər böyük imkanları, potensialı var. Hansı ki, iqtisadiyyat xamdır, işlənməmiş iqtisadiyyatdır. Xüsusilə də qeyri-neft iqtisadiyyatı tamamilə boş sahədir. İstənilən xarici investorun Azərbaycanın qeyri-neft sektoru bazarında rəqabət aparmaq, uğur qazanmaq imkanı var. Çünki bu bazarda mənfəət norması yüksəkdir, amma bunlara baxmayaraq, qeyd etdiyimiz səbəblərə görə xarici investorlar gəlmirlər. Bundan başqa, investisiya mühitini daha da yaxşılaşdıracaq təşviq mexanizmləri hazırlanmalıdır. Məsələn, vergi yükünün azaldılması məsələsi. Vergi yükü azaldılmalıdır. Dünya Bankının hesabatına görə, Azərbaycanda kommersiya gəlirlərində vergi yükü 41 faiz ətrafında dəyişir.

Gürcüstanda isə bu göstərici 16, 5 faizdir. Necə olur ki, büdcə gəlirlərinin 56-58 fazini neftdən formalaşdıran bir ölkədə vergi səviyyəsi bu qədər yüksək olur. Bu özü maraqlı suallardan biridir. Bu istiqamətdə mütləq aidiyyəti qurumlar konkret mövqe ortaya qoymalı, həmçinin, investisiyanın təminatı və rəqabətli mühitlə bağlı konkret addımlar atılmaldır. Eyni zamanda, müəyyən qədər daha əlverişli şərtlər təşkil edən Ələt Azad iqtisadi zonası ilə bağlı fəaliyyətlərin sürətlənməsinə ehtiyac var. Bu çox gecikib, hələ də bu istiqamətdə konkret nəticə ortada yoxdur. Həmçinin, məmur himayədarlığı və məmur biznesi ilə əlaqədar ciddi addımların atılmasına ehtiyac var. Birdəfəlik olaraq bu iki tərəf arasında konkret hədlər müəyyənləşdirilməlidir. Bu insanlar qərar qəbul etməkdən çəkinməlidirlər, onlar, sadəcə, bizneslə məşğul olmalıdırlar. Eyni zamanda, inhisarçılıq üçün əlavə şərait yaradan, müəyyən infrastruktur formalaşdıran bütün hüquqi mexanizmlər də yenidən gözdən keçirilməli və ləğv edilməlidir" - deyə R.Həsənov qeyd etdi.

***İradə SARIYEVA***

# Bakı-Tiflis-Qarsla sərnişin daşınması Gürcüstana görə start götürə bilmir...

**Qonşu Gürcüstanın iqtisadi inkişafında Azərbaycanın müstəsna rol oynaması birmənalı həqiqətdir və belə görünür ki, hələ qarşıdakı dövr ərzində də ölkəmiz bu dövlət üçün böyük önəm kəsb etməkdə davam edəcək. Xatırladaq ki, məhz Azərbaycanın müəllifi olduğu transmilli layihələrin Gürcüstandan keçməsi nəticəsində bu ölkənin iqtisadiyyatında əsaslı inkişaf qeydə alınır.**

Bundan əlavə, Azərbaycan hələ də Gürcüstan üçün ən böyük xarici investorlardan biridir.

Hazırda hadisələrin inkişaf axarı göstərir ki, Azərbaycan yenə Gürcüstan üçün də mühüm əhəmiyyət kəsb edən növbəti addım atmağa hazırlaşır. Söhbət Bakı-Tiflis-Qars dəmir yolu ilə sərnişin daşınmasından gedir. Xatırladaq ki, Bakı-Tiflis-Qarsın Gürcüstandan keçən hissəsi də Azərbaycanın bu ölkəyə ayırdığı kreditlər hesabına inşa edilib və indi onunla daşınan yüklərə görə Gürcüstan tranzit haqqı olaraq xeyli gəlir əldə edir. Amma bu dəmir yoli istifdəyə veriləndə Azərbaycan üçün maraqlı maqamlardan biri Bakı-Tiflis-Qarsla sərnişin daşınmasını da təmin etmək idi.

Əslində, qeyd edilən xüsusda ölkəmiz müvafiq addımlar atıb. Məsələ burasındadır ki, Azərbaycan "Stadler Rail Group" şirkətindən artıq sərnişin qatarları alıb. 10 vaqondan ibarət ilk sərnişin qatarı bu ilin mart ayında Bakıya gətirilib. Qatarda doqquz sərnişin vaqonu və bir restoran var. Vaqonlar "standart", "komfort", "biznes" və "restoran" olmaqla dörd kateqoriyada istehsal edilib. Kateqoriyasından asılı olaraq vaqonlar 10, 20 və 32 nəfərlikdir. Ümumilikdə qatarda bir istiqamətə 246 yer nəzərdə tutulub. Elə bu fonda Bakı-Tiflis-Qars dəmir yolu xətti üzrə sərnişin daşınmasının avqust ayında reallaşacağı deyilirdi. Avqustdan xeyli vaxt keçsə də, Bakı-Tiflis-Qars sərnişin qatarı hələ də istifadəyə verilməyib. Bunun səbəbləri isə həmin vaxt üçün Gürcüstan və Türkiyə tərəfinin sərnişin qatarının işə düşməsinə hazır olması oldu. Gürcüstan və Türkiyədən fərqli olaraq, Azərbaycan tərəfi bu dəmir yolu ilə sərnişin daşınmasına başlamağa o vaxtdan hazır idi. Indi məlumatlara görə, Türkiyədə də problem həll edilib. Hazırda problem gürcü tərəfindən qaynaqlanır və belə görünür ki, bu dəfə də gürcülərin köməyinə Azərbaycan gələcək. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanovun açıqlamaları da bunu təsdiq edir. Onun sözlərinə görə, Bakı-Tiflis-Qars dəmir yolu ilə sərnişin daşımalarının gecikməsiGürcüstan tərəfindəki texniki problemlərlə əlaqədardır. O bildirib ki, Azərbaycan tərəfi bu dəmir yolu xətti ilə sərnişin daşımalara başlamaq üçün tam hazırdır. Lakin Gürcüstan tərəfində mövcud olan bəzi texniki problemlər bu daşımalara başlamağa imkan vermir: "Gürcüstan tərəfində xüsusi əyləc sistemli lokomotivlər yoxdur. Bu da sərnişin daşımaları üçün problem yaradır. Bizim qatarlarımız və vaqonlarımız hazırdır və biz sərnişin daşımalarına başlaya bilərik. Lakin bu yolda hərəkət etmək üçün Gürcüstan tərəfinin dağ yerlərində əks əyləcləmə sistemi olan elektrovozları yoxdur. Bu, yeni vaqonlara uyğunlaşdırılıb quraşdırılmalıdır. Lakin onlarda bu qurğular yoxdur".

C.Qurbanov əlavə edib ki, məsələ yaxın vaxtlarda həllini tapmasa "Azərbaycan Dəmir Yolları" QSC Gürcüstan tərəfinə öz lokomotivlərini təklif edəcək: "Bu məsələ həll edildikdən sonra biz sərnişin qatarlarını xəttə buraxa bilərik. Əgər bir-iki aya vəziyyət düzəlməsə və məsələ həll olunmasa, Azərbaycan öz elektrovozlarını və ya dizel lokomotivlərini təklif edəcək". O, həmçinin qeyd edib ki, Bakı-Tiflis-Qarsa əlavə yüklərin cəlb edilməsi məqsədilə Çin və Rusiya ilə danışıqlar aparılır.

Ekspertlər vurğulayır ki, Bakı-Tiflis-Qarsla sərnişin daşınması mühüm əhəmiyyət kəsb edir və ilk növbədə bu hal dəmir yolunun səmərəlilik və gəlirlilik səviyyəsini artıracaq. Eləcə də bu, turizmin inkişafında mühüm əhəmiyyət kəsb edəcək. Yəni Bakı-Tiflis-Qars iqtisadiyyatla bərabər, turizmin də inkişafına əhəmiyyətli təsir göstərəcək. Ümumiyyətlə, bu dəmir yolu xətti ilk növbədə onu realllaşdıran üç ölkənin turizm sahəsində əlaqələrinin genişlənib inkişaf etməsində böyük rol oynayacaq. Həmçinin bu marşrutdan Orta Asiya ölkələrinin turistləri də Azərbaycana, Gürcüstana, Türkiyəyə gəlmək üçün istifadə edə bilərlər. Xatırladaq ki, qeyd edilən xüsusda Özbəkistan baş nazirinin müavini Elaer Qaniyev elə bu günlərdə maraqlı açıqlamalar verib. Onun sözlərinə görə, Özbəkistan regionun bütün ölkələri ilə nəqliyyat və logistika sahəsində əməkdaşlıqda maraqlıdır: "Hazırda regionun bütün ölkələri - Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Türkiyə istər Şərq, istərsə də Qərb marşrutu ilə yüklərin daşınması üçün yaxşı şərait yaradıb. Bakı-Tiflis-Qars dəmir yolu, habelə Azərbaycanda Ələt, Gürcüstanda Poti və Anaklia, Qazaxıstanda Aktau, Türkmənistanda Türkmənbaşı dəniz limanları və nəqliyyat infrastrukturu üzrə digər layihələr bu regionda yeni imkanlar yaradıb və bu böyük potensialdan istifadə etmək lazımdır". O, perspektivdə bu istiqamətdə sərnişin daşınmasının da böyük potensialının olduğunu bildirib.

Digər tərəfdən, bu layihə Qara dəniz bölgəsinə gedən turistlərin hərəkətinin, o cümlədən Azərbaycan ərazisində Bakı-Tiflis-Qars istiqamətində olan stansiyalara yaxın ərazilərin turizminin canlandırılması baxımından bir fürsət sayılır. Həmçinin dəmir yolu nəqliyyatı digərlərindən daha ucuz olduğundan, turistlər üçün daha əlverişli olacaq. Ona görə də Bakı-Tiflis-Qarsla sərnişin daşınmasının tezləşdirilməsi vacib sayılır. Bu reallaşacağı təqdirdə sğzügedən dəmir yolu vasitəsilə həm Avropadan, həm də Asiyadan insanların daha ucuz şəkildə daşınmasının həyata keçirilməsi ölkəmizdə turizm sektorunun inkişafına yeni təkan verəcək. Belə vəziyyətdə Bakı-Tiflis-Qars üzərindən Azərbaycana daha çox turistin gəlməsi gözlənilir.



**Ölkəmizdə səfərdə olan Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turan məsələ ilə bağlı bildirir ki, Bakı-Tiflis-Qars yalnız ticarətə deyil, bölgədə turizmin inkişafına da töhfə verəcək: "Bakı-Tiflis-Qars yalnız Türkiyə, Azərbaycan və Gürcüstanın iqtisadi inkişafı üçün deyil, ümumilikdə bölgədə iqtisadi inkişafa xidmət edəcək. Bu dəmir yolu ilə sərnişin daşınmalarına başlanılmasından sonra layihə bölgədə turizmin inkişafına da töhfə verəcək. Bu dəmir yolu layihəsi iqtisadi cəhətdən faydalıdır. Bu dəhlizlə nə qədər çox yük daşınarsa, nə qədər çox ölkə qoşularsa, layihə daha da effektiv ola bilər".**

***Nahid SALAYEV***

# Neft, qaz, ardınca atom enerjisi - Azərbaycan dünya enerji bazarında yerini daha da möhkəmləndirəcək...

**Məlum olduğu kimi, gələn ildən TAP kəmərinin istfidayə verilməsi ilə bağlı olaraq Azərbaycan Avropaya təbii qaz ixracına başlayacaq. İlkin mərhələdə ölkəmiz Avropaya ildə 10 milyard kubmetr mavi yanacaq satışını həyata keçirəcək. Sonrakı dövr ərzində bu həcmin daha da artması planlaşdırılır və tədricən Avropaya Azərbaycan özü təkcə 20 milyard kubmetr qaz satışını həyata keçirəcək.**

Bu müddət ərzində Azərbaycan Türkiyəyə da qaz nəqlini reallaşdıracaq və qardaş ölkəyə il ərzində satılan qazın miqdarı 6 milyard kubmetrə çatacaq. Eyni zamanda demoqraik artım və iqtisadi inkiaşfla ballı olaraq ölkə daxilində qazın istehlak həcminin artması qaçılmaz sayılır. Belə vəziyyətdə aktuallaşan məsələlərdən biri ölkədə elektrik enerjisinin istehsalı üçün sərf edilən təbii qazın əhalinin istehlakına və satışa yönəldilməsidir.

Rəsmi açıqlamalara görə, hazırda Azərbaycanın 2,6 trilyon kubmetr dəqiqləşdirilmiş çıxarıla bilən qaz, 1,5 milyard ton çıxarıla bilən neft-kondensat ehtiyatı var. Proqnoz ehtiyatlarını da nəzərə alsaq, Azərbaycanda 6 trilyon kubmetr qaz və 4 milyard ton neft ehtiyatı var. İndiyə qədər dünya bazarına çıxarılan neftin həcmi 482 milyon ton olub. Hesab olunur ki, bu ehtiyatların dünya bazarında satışa yönəldilməsi daha məqsədəuyğundur.

Digər tərəfdən məlumat üçün bildirək ki, 2018-ci ilin yekunlarına görə, Azərbaycan 22,368 milyard kilovat-saat elektrik enerjisi istehsal edib. Eyni zamanda, 65,627 milyon dollar dəyərində 1,397 milyard kilovat-saat ixrac edilib. Elektrik enerjisi hazırda əsas etibarı ilə məhz təbii qazın yandırılması hesabına əldə olunur. Ölkənin istilik stansiyalarında 20,534 milyard kilovat-saat və ya 91,8 faiz, su elektrik stansiyalarında 1.737 milyard kilovat-saat və ya 7.8 faiz elektrik enerjisi istehsal olunur. Bununla yanaşı, külək və günəş enerjisinin istehsalı cəmi 0,4% təşkil edir. Energetika Nazirliyinin hesablamalarına görə, 2025-ci ilə qədər Azərbaycanda elektrik enerjisi istehlakının artımının ildə 25-28 milyard kilovat-saata çatacağı gözlənilir. Belə vəziyyətdə yeni istilik stansiyalarının qurulması və onların təbii qazla təmini zəruri şərt qismində çıxış edir. Məhz bütün bunları nəzərə alan ekspertlər bildirir ki, Azərbaycan atom elektrik stansiyasının (AES) inşasını həyata keçirməklə təbii qazın enerji istehsalına yönəldilməsindən azad ola bilər. Əvəzində ixraca daha böyük həcmdə qazın yönəldilməsi də bu zaman mümkün hala gəlir.

Xatırldaq ki, Rusiya prezidenti Vladimir Putin bu ayın əvvəlində Azərbaycan prezidenti İlham Əliyevə Bakı yaxınlığında atom elektrik stansiyası tikməyi təklif edib. "Rosatom" Dövlət Konserninin rəhbəri Aleksey Lixaçov bildirib ki, AES-in güc seçimi Azərbaycana bağlıdır və Rusiya onu qurmağa hazırdır. Ekspertlər də bildirir ik, hazırda klassik istilik stansiyalarına yeganə universal alternativ qismində atom elektrik stansiyaları çıxış edir. Mütəxəssislərin hesablamalarına görə, kömür, neft və qaz enerjiyə olan tələbatın təmin edilməsi üçün maksimum daha 50 il istifadə olunacaq. Bu da karbohidrogen xammalına olan qiymətin yaxın gələcəkdə ikiüç dəfə artmayacağı şərti ilə baş verəcək. Buna baxmayaraq, artıq bu gün AES-də əldə olunan elektrik enerjisi neft və qazdan əldə olunan elektrik enerjisindən 10-15% ucuzdur. Özü də bu enerji neft və qaza nisbətən ekoloji cəhətdən də təmizdir.

Onu da qeyd edək ki, Azərbaycanda AES tikilməsi təzə məsələ deyil. Hələ Sovetlər Birliyi dönəmində SSRİ Nazirlər Soveti Azərbaycanda AES tikilməsi barədə qərar qəbul etmiş, müvafiq layihə və texniki-iqtisadi əsaslandırmalar hazırlanmış və bu işin Nəvai qəsəbəsi tərəfdə həyata keçirilməsi istiqamətində ilkin hazırlıq işləri də başlanmışdı. Lakin 1986-cı ildə Ukraynada baş verən qəza Azərbaycanda AES tikilməsi işini dayandırdı. İndi isə vəziyyət dəyişib və müasir texnologiyalar əsasında belə stansiyaların inşası daha təhlükəsiz şəraitdə həyata keçirilir. Özü də bu sahədə dünya miqyasında öncül ölkələrdən biri də Rusiyadır. Rusiya isə Azərbaycanda bu cür stansiya tikməyə hazır olduğunu bəyan edir.

Xatırladaq ki, Türkiyədə inşa edilən "Akkuyu" AES-də bütün proseslər məhz Rusiya tərəfindən həyata keçrilir. Özü də burada AES-lərin digər üstünlüyü də nəzərə alınmalıdır. Məsələn, su elektrik stansiyaları tərəfindən elektrik enerjisi istehsalının artması kənd təsərrüfatı istehsalı üçün yararlı olan torpaqların su altında qalmasına səbəb olur. Bundan əlavə, Azərbaycanda kifayət qədər axar çaylar yoxdur. Eləcə də elektrik enerjisi istehsal etmək üçün günəş enerjisindən istifadə yalnız günəş panelləri üçün əhəmiyyətli meydançaları tələb etmir, həm də hava şəraitindən asılı olduğu üçün bütövlükdə enerji sisteminin sabitliyini də vəd etmir. Amma AES tamam fərqli məsələdir və sabit enerji mənbəyidir.




AES-in tikilməsinin dəyəri reaktorun gücü, avadanlığın hardan alınmasından, maliyyələşdirmə mənbələri və şərtlərindən və digər bu kimi amillərdən asılı olaraq, bir reaktorun qiyməti 2 milyard dollardan 5 milyard dollara qədər dəyişə bilir. Bundan əvvəl Rusiya Elmlər Akademiyasının İqtisad İnstitutunun elmi əməkdaşı Aleksandr Karavayev belə bir açıqlama ilə çıxış edib ki, Azərbaycana Türkiyədə tikilən "Akkuyu" və İrandakı "Buşehr" kimi güclü AES-lər lazım deyil. Azərbaycan üçün orta güclü, 5-7 milyard avroya başa gələ biləcək orta güclü stansiya kifayətdir: " Azərbaycan texnologiya və iqtisadi inkişafa görə dünyanın ilk iyirmi ölkəsinin sırasına düşmək istəyirsə, nəzərə almalıdır ki, bütün dünya liderləri iqtisadi və sənaye inkişafının hərəkətverici qüvvələrindən biri kimi məhz nüvə energetikasını seçib.

Başa düşmək lazımdır ki, strateji perspektivdə bütün xərclər kompensasiya ediləcək. Aydındır ki, hasil olunan qazı ixrac etmək mümkün ikən, onu ənənəvi energetikanın inkişafına yönəltməyə ehtiyac yoxdur. Eyni sözləri İES üçün mazut barədə də demək olar. Bundan əlavə, Azərbaycan perspektivdə elektrik enerjisini Gürcüstana və Türkiyənin şərq rayonlarına sata, həmçinin "Şimal-Cənub" nəqliyyat layihəsini elektriklə təmin edə bilər".

***Tahir TAĞIYEV***

# Ölkədə qənd istehsalçılarının insanlara "kimya" yedizdirməsi təhlükəsindən necə qorunmalı...

## *Eyyub Hüseynov: "...istehsal etdikləri qəndin tərkibinə kimyəvi maddə vurduğunu rəsmən təsdiqləyir"*

**Azərbaycanda istehsal edilən bir sıra qida məhsullarının tərkibinə kimyəvi maddələr vurulması dəfələrlə gündəmə gətirilib. Son zamanlar gündəlik qida rasionumuzda əsas yer tutan qənd məhsulunun da tərkibində müəyyən kimyəvi maddələr aşkarlandığı barədə məlumatlar yayılır.**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) qənd istehsal edilən sexlərdə apardığı monitorinq zamanı qənd məhsulunun tərkibində kimyəvi maddə aşkarlandığını qeyd edib. AQTA və Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ölkə ərazisində qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlərin davam etdirildiyi qeyd edilir.

AQTA və Baş Prokurorluğun mətbuat xidmətlərindən mətbuata verilən birgə məlumata görə, bir sıra qənnadı məmulatlarının istehsalı müəssisələrində kəllə qənd istehsalı zamanı qəndin ağardılmasında mənşəyi məlum olmayan kimyəvi maddələrdən istifadə edildiyi barədə daxil olmuş məlumatlar əsasında İran İslam Respublikasının vətəndaşı Tayef Davoud Müseyib oğluna məxsus, Bakı şəhəri, Binəqədi rayonu, Ə.Rəcəbli küçəsi 53 ünvanında yerləşən anbara baxış keçirilərkən tərkibində qida məhsullarının istehsalında istifadəsinə yol verilməyən 79 kq toz halında ağardıcı kimyəvi maddə aşkar olunub.

Rəsmi məlumata görə, araşdırmalar zamanı müəyyən edilib ki, həmin maddə D.Tayef tərəfindən uzun müddət ərzində İrandan ölkəmizə gətirilərək müxtəlif qənd istehsalı sexlərinə satılmaqdadır.

Həyata keçirilən monitorinqlər zamanı müəyyən edilib ki, bir sıra qənd istehsalı sexlərində istifadə olunan maddənin xarici görünüşü tozşəkilli, kəskin, spesifik iyli, tərkibində qida məhsullarının istehsalında istifadəsinə yol verilməyən və insan orqanizmi üçün təhlükəli olan natrium ditionit ($Na_2S_2O_4$) maddəsidir.

Qeyd olunan maddənin əsasən tekstil sənayesində və kağız istehsalı müəssisələrində ağardıcı kimi istifadə olunduğu müəyyən edilib.

Əldə olunmuş məlumatlar əsasında dərhal AQTA-nın Bakı və Sumqayıt regional bölmələrinin əməkdaşları tərəfindən Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları ilə birgə müvafiq məhkəmə qərarları əsasında müxtəlif ünvanlarda baxışlar keçirilib.

Baxış zamanı Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi 7, Badamdar küçəsi 21 saylı ünvanlarda yerləşən fiziki şəxs Nadirov Teyyub Yaqub oğluna məxsus qənd istehsalı müəssisəsində, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Bəşir Bünyadov 11 saylı ünvanda yerləşən, fiziki şəxs İsmayılova Tərlan İsmayıl qızına məxsus qənd istehsalı müəssisəsində, Abşeron rayonu, Xırdalan-Masazır şossesinin şimal hissəsində yerləşən "Aysu Qida Sənaye LTD" MMC-yə məxsus qənd istehsalı müəssisəsində və Sumqayıt şəhəri, Sülh küçəsində yerləşən, fiziki şəxs Əlizadə Maqsud Əli oğluna məxsus qənd istehsalı müəssisəsində natrium ditionit aşkar edilərək maddi sübut kimi götürülüb.

Eyni zamanda, həmin müəssisələrdə istehsal olunan məhsullardan sınaq nümunələri götürülüb və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun Kompleks müayinələr laboratoriyasına təqdim edilib. Sınaq nəticələrinə əsasən, götürülmüş nümunələrin tərkibində insan orqanizmi üçün təhlükəli olan natrium ditionit aşkar edilib və kükürd dioksidin ($SO_2$) kütlə payının qida təhlükəsizliyi sahəsində normativ sənədlərin tələblərinə uyğun olmadığı müəyyən olunub.



*"Bu maddənin tərkibi kükürdlə zəngindir"*

Yuxarıda qeyd olunanlarla bağlı agentliyin müvafiq qərarı ilə fiziki şəxs Nadirov Teyyub Yaqub oğlu tərəfindən istehsal olunmuş və tərkibində natrium ditionit aşkar edilmiş 18 ton 299 kq "Qədim dad" və "Bizim aşçı", fiziki şəxs İsmayılova Tərlan İsmayıl qızı tərəfindən istehsal olunmuş 17 ton 116 kq "Qidam" əmtəə nişanlı, "Aysu Qida Sənaye LTD" MMC tərəfindən istehsal olunmuş 2 ton 215 kq "Kristal" və "Əmin" əmtəə nişanlı və fiziki şəxs Əlizadə Maqsud Əli oğlu tərəfindən istehsal edilmiş 3 ton 247 kq "İran", "Sevimli" və "Mədinə" əmtəə nişanlı qənd partiyalarının satış üçün dövriyyəyə çıxarılmasının qarşısı alınıb.

Qeyd olunan qanun pozuntuları ilə bağlı təqsirkar şəxslər barəsində Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən cinayət işi başlanıb.

Bundan başqa, agentliyin əməkdaşları tərəfindən digər qənd istehsalı müəssisələrində də yoxlamalar aparılmaqla inzibati və məhdudlaşdırıcı tədbirlər görülüb, bu sahədə bir sıra sağlamlaşdırıcı işlər həyata keçirilərək müəssisələrin fəaliyyətləri ciddi nəzarətə götürülüb. Qeyd edək ki, AQTA və Baş Prokurorluq bir daha bəyan edir ki, qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısının alınması istiqamətində bundan sonra da ən sərt tədbirlər görüləcək.

Xatırladaq ki, bir neçə ay əvvəl də kəllə qənd sexlərində həyata keçirilən monitorinq zamanı analoji problem üzə çıxmışdı.

Ölkəmizdə qənd isethsalı ilə məşğul olan bəzi sexlərdə aşkarlanan problemlər digər istehsalçı sexlərdə və şirkətlərdə də ola bilərmi?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda kəllə qənd istehsalı ilə məşğul olan sexlərin əksəriyyətində bu məhsulun hazırlanmasında insan sağlamlığına zərər vuran maddələrdən istifadə edilir. O qeyd etdi ki, Azərbaycanda bəzi istehsal müəssisələrində kəllə qəndin ağardılması prosesində insan sağlamlığı üçün təhlükəli olan "sodium hidrosulfit" maddəsindən istifadə edilir.

E.Hüsenovun sözlərinə görə, istehlakçılara mütəmadi olaraq qəndin ağardılmasında müxtəlif qadağan edilmiş kimyəvi maddələrdən istifadə edildiyi barədə məlumat verirdilər. "Biz ilyarım bundan əvvəl Azərbaycanın əmtəə bazarına qənd istehsal edən 17 sexin istehsal etdiyi qəndləri analiz etdik, laboratoriyada ekspertizasını keçirdik, onların təxminən 90 faizində ağardıcının normadan artıq vurulduğunu və primitiv üsullarla hazırlandığını müəyyən etdik. Ekpertizanın rəyindən məlum oldu ki, şəkər tozundan kəllə qənd istehsal edən kiçik sexlərin əksəriyyəti qəndin ağardılması zamanı insan orqanizmi üçün ciddi fəsad yaradan kimyəvi maddədən istifadə edir. Bəllidir ki, kəllə qənd əldə etmək üçün şəkər tozu qaynadılır. Bu zaman onun rəngi dəyişərək tündləşir. Şəkər tozundan ağ kəllə qənd istehsal etmək üçün texnoloji proses aparılmalıdır. Kəllə qəndi əldə etmək üçün iki yoldan istifadə edilir. Birincisi, mərkəzdənqaçma qüvvəsi ilə "sentrafuqlma" deyilən bir cihazla həyata keçirilir. Bu təbii yolla ağartmadır. Yəni onun sarılığı itir. "Sentrafuqlma" yəni sürətli fırlanma prosesi hesabına qəndin tərkibindən rəngli maddə ayrılır və ağ qənd qalır. Amma bu gün ölkədə fəaliyyət göstərən kiçik qənd sexlərində bu qurğu yoxdur. Bizim akkreditasiya olunmuş laboratoriyada apardığımız ekspertiza zamanı məlum oldu ki, həmin sexlər qəndi ağartmaq üçün, qeyd etdiyim kimi, çox təhlükəli maddədən yararlanırlar. Bu, "sodium hidrosulfit" adlanan maddədir. Bu maddənin tərkibi kükürdlə zəngindir. Ölkədə kəllə qənd istehsal edən sexlərin 80-90 faizində qənd kimyəvi yollarla ağardılır. O vaxt hələ Qida Təhlükəsizliyi Agentliyi yox idi, dövlət qurumları qarşısında məsələ qaldırdıq ki, bu fakt araşdırılsın. Demək olar ki, bu sahədə İqtisadiyyat Nazirliyi heç bir iş görmədi. Bu gün isə Qida Təhlükəsizliyi Agentliyi bu məsələyə toxunub və bu da ölkəmizdə qənd istehsalı ilə məşğul olan sexlərin istehsal etdikləri qəndin tərkibinə kimyəvi maddə vurduğunu rəsmən təsdiqləyir. Hansı müəssisələrdə ki, kəllə qənd hazırlayan avadanlıq - "sentrafuqlma" yoxdur, onlar qəndin ağardılmasında kimyəvi üsullardan istifadə edirlər, bu da qəndi çox təhlükəli maddəyə çevirir" - deyə E.Hüseynov qeyd etdi.

***İradə SARIYEVA***

# Heyvan ətinin ucuzlaşmasına şərait açan maraqlı vergi güzəşti - ƏDV götürüləcək

**Xəbər verildiyi kimi, gələn ildən Azərbaycanın heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı 4 il müddətinə əlavə dəyər vergisindən (ƏDV) azad ediləcək.**

*"Heyvan ətinin əlavə dəyər vergisindən azad edilməsi ən çox xaricdən gətirilən ət məhsullarının qiymətinə təsir edəcək"*

Bununla yanaşı, gələn ildən Azərbaycanda heyvan ətinin satışı 4 il müddətinə əlavə dəyər vergisindən (ƏDV) azad ediləcək. Amma vergi güzəşti kəsilmiş və dondurulmuş heyvan ətləri istisna olmaqla, emala göndərilən ətə aid deyil.

Həmçinin, sənəddə quş ətinin satışının ƏDV-dən azad edilməsi ilə bağlı 2017-ci ildən tətbiq edilən qaydanın müddətinin 2023-cü ilin sonuna qədər uzadılması təklif olunur.

Qeyd edək ki, bu məsələ "Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında" qanun layihəsində öz əksini tapıb.

Heyvan və quş əti, yem və yem əlavələrinin ƏDV-dən azad olunması ətin satış qiymətinə necə təsir edəcək? Ümumiyyətlə, bu hal bazarda qiymət dəyişikliyinə səbəb ola biləcəkmi?

Ekspertlərin fikrincə, heyvan ətinin ƏDV-dən azad edilməsi həm istehlakçıların işini asanlaşdıracaq, həm də istehsalçıları təşviq edəcək. Bu qərardan sonra ət məhsullarının qiymətində müəyyən ucuzlaşma müşahidə edilə bilər.

İqtisadçı-ekspert Natiq Cəfərli bildirdi ki, heyvan ətinin əlavə dəyər vergisindən azad edilməsi ən çox xaricdən gətirilən ət məhsullarının qiymətinə təsir edəcək: "Bununla yanaşı, yerli heyvan ətinin qiymətində də ucuzlaşma olacaq. Xaricdən heyvan əti gətirilən zaman rəsmiləşdiriləndə gömrük rüsumu və əlavə dəyər vergisi ödənilirdi. Xaricdən gətirilən heyvan əti də əlavə dəyər vergisindən azad ediləcəksə, bu həmin ətin qiymətinə müəyyən dərəcədə təsir edəcək.

Ancaq daxili satış fərqlidir. Çünki hazırda ölkədə ət satışı ilə kiçik sahibkarlar məşğul olurlar. Bakıda kifayət qədər kiçik qəssab dükanı var və onlar onsuz da əlavə dəyər vergisi vermirlər. Onlar kiçik sahibkar kimi VÖEN ilə fəaliyyət göstərirlər. Bu səbəbdən, heyvan ətinin ƏDV-dən azad edilməsi ən çox xaricdən gətirilən məhsullara təsir edəcək".

***Natiq Cəfərli:*** *"Yerli ətin qiymətində ucuzlaşma bir qədər az olacaq"*



Həmsöhbətimiz hesab edir ki, bu qərar yerli heyvan ətinin qiymətini çox ucuzlaşdırmayacaq: "Çünki Azərbaycana xaricdən gətirilən ətin istehlak istiqamətləri bir qədər fərqlidir. Bu ət daha çox dövlətin öz ehtiyacları və ordu üçün istifadə edilir. Bundan başqa, xaricdən gətirilən ət kolbasa istehsalında istifadə olunur. Yəni ölkə əhalisi gündəlik istehlak üçün xarici ətdən istifadə etmir. Bizim toplum, bizim cəmiyyət ağız dadı olaraq yerli ətə öyrəşib. Bu gün hamı ev üçün ancaq yerli heyvan əti alır. Hesab edirəm ki, ət məhsullarının ƏDV-dən azad edilməsi yerli heyvan ətinin qiymətinə ciddi təsir etməyəcək. Yerli ətin qiymətində ucuzlaşma bir qədər az olacaq".

***Günel CƏLİLOVA***

# Azərbaycanda tikinti materiallarının istehsalı nələrin hesabına belə sürətlə artır...

**"Azərbaycanda tikinti sektorunda, xüsusilə də tikinti materiallarının istehsalı sahəsində əhəmiyyətli artım müşahidə olunur". Bunu Bakıda keçirilən 25-ci Azərbaycan Beynəlxalq İnşaat Sərgisinin ("BakuBuild 2019) açılışında iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib.**

*"...stimullaşdırıcı addımlar atılmalıdır"*

O bildirib ki, son beş il ərzində ölkədə tikinti materiallarının istehsalı 70 faizdən çox artıb: "Bu, iqtisadiyyatın prioritet sahəsinin yüksək artım dinamikasını təsdiq edən yaxşı göstəricidir. Göstərilən müddət ərzində Azərbaycanın 17 tikinti şirkəti investisiya sənədləri alıb ki, bu da müsbət nəticədir".

Məlumdur ki, Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına böyük diqqət ayrılır. Tikinti sənayesi də qeyri-neft sektorunun əsas sahələrindən biri sayılır.

Tikinti materiallarının istehsalının artması tikinti sektorunun inkişafına necə təsir edəcək?

Daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son illər tikinti materiallarının istehsalında artım qeydə alınır.: "Tikinti materialları istehsalında artımın qeydə alınmasına baxmayaraq, bu sahədə qiymət dəyişikliyi yaşanmır. Hətta bəzi yerli istehsal məhsullarının qiymətində artım qeydə alınıb. İstehsalın artımı ilə yanaşı, stimullaşdırıcı addımlar atılmalıdır. Qiymət artımına səbəb olan amillər araşdırmalı, bu sahədə yaşanan problemlər aradan qaldırılmalıdır. Yerli istehsalın həcminin artmasına, idxalın azalmasına baxmayaraq, bu sahədə qiymətlər stabil olaraq qalır. Bu hal tikinti sektoruna hər hansı bir təsir etməyib".

***Ramil Osmanlı:*** *"Tikinti materialları istehsalında artımın qeydə alınmasına baxmayaraq, bu sahədə qiymət dəyişikliyi yaşanmır"*



Həmsöhbətimiz hesab edir ki, tikini materiallarının maya dəyəri aşağı düşərsə, bu hal tikinti sektorunun inkişaf etməsinə səbəb ola bilər. Əks təqdirdə tikinti sektorunda hər hansı bir inkişaf qeydə alınmaz.

***Günel CƏLİLOVA***

№ 189 (4087) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

24 OKTYABR 2019-cu il

www.baki-xeber.com



## Azərbaycanın orta məktəblərində "Kibermәkanda tәhlükәsiz davranış mәdәniyyәti" mövzusu müzakirә olunur

**Kompyuter texnologiyalarının sürәtli inkişafı vә internet şәbәkәsinin әhatә dairәsinin genişlәnmәsi ünsiyyәt, inkişaf, insan hәyatının asanlaşdırılması vә yaşam keyfiyyәtinin yüksәldilmәsi istiqamәtindә böyük imkanlar açır. Lakin internet yalnız imkanlar toplusu deyil, hәm dә tәhlükә mәnbәyidir.**

Bu gün yüz milyonlarla insan internet istifadәçisidir ki, onların da böyük qismi ümumdünya "hörümçәk torunun" tәhlükәlәrindәn xәbәrdar olmayan uşaqlardır. Belә olan halda, "kibermәkanda tәhlükәsiz davranış mәdәniyyәti" mövzusunun әhәmiyyәti artmağa başlayır. Kiber tәhlükәlәrin qarşısının alınmasında әsas vasitәlәrdәn biri gәnc nәslin bu tәhlükәlәrlә bağlı vaxtında mәlumatlandırılması, insanlar vә әşyaların internet vasitәsilә bağlandığı yeni rәqәmsal dövrә hazırlanmasıdır.

Mövzunun aktuallığını nәzәrә alaraq, 23 oktyabr tarixindә Azәrbaycan Respublikası Nәqliyyat, Rabitә vә Yüksәk Texnologiyalar Nazirliyi, Tәhsil Nazirliyi, şәbәkә texnologiyaları sahәsindә dünya lideri olan "Cisco" şirkәti vә ölkәnin lider mobil operatoru "Azercell Telekom" MMC-nin birgә tәşkilatçılığı ilә mәktәblәrdә internetdә tәhlükәsiz davranışla bağlı sosial maarifländirici layihә keçirilib. Layihә әsnasında "Giving Back" sosial proqramı çәrçivәsindә böyük bir nümayәndә heyәti ilә Azәrbaycana sәfәr edәn "Cisco" әmәkdaşları Bakının on orta mәktәbindә eyni anda 3-5-ci sinif şagirdlәri üçün mәlumatlandırıcı sessiyalar keçirib. Proqramın mәqsәdi gәnc iştirakçılara vә beynәlxalq şәbәkә istifadәçilәrinә internet mәkanında mövcud olan risqlәrә yanaşı, mümkün tәhlükәlәrdәn qorunma yolları vә arzuolunmaz nәticәlәrin qarşısının alınması barәdә mәlumat vermәkdir.

Qeyd edәk ki, kibertәhlükәsizlik mövzusuna öz korporativ sosial mәsuliyyәt proqramlarında xüsusi diqqәt ayıran layihәnin rәqәmsal tәrәfdaşı "Azercell" bu tәşәbbüsü dәstәklәyәrәk, orta mәktәblәrә aylıq 10 GB internet paketli MiFi modemlәri, şagirdlәrә isә müxtәlif hәdiyyәlәr tәqdim edib.

Xatırladaq ki, "Azercell" şirkәti 2016-cı ildә internetdә uşaqların tәhlükәsizliyini tәmin etmәk üçün "Universal Mühafizә", "Android üçün Müdafiә" vә "Valideyn Nәzarәti" xidmәtlәrini özündә cәmlәyәn "Azercell Plus Tәhlükәsizlik" proqramını istifadәyә verib. Hәmçinin, "Azercell" 2018-ci ildәn etibarәn Bakıda vә bölgәlәrdә uşaqlar, valideynlәr vә müәllimlәr üçün "İnternet tәhlükәsizliyi vә rәqәmsal vәtәndaşlıq" mövzusunda tәlimlәr keçirir.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## "Nar" "Canlı kitab" sosial layihәsinә başlayıb

**Sosial әhәmiyyәt daşıyan layihәlәrdә fiziki mәhdudiyyәtli şәxslәrә hәr zaman dәstәk göstәrәn "Nar" "Radio Antenn" 101 FM-lә birgә "Canlı kitab" layihәsinә start verib.**

Layihә çәrçivәsindә dünya vә Azәrbaycan әdәbiyyatının seçmә nümunәlәri tanınmış aktyorlar, qiraәt ustaları tәrәfindәn sәslәndirilib xüsusi elektron daşıyıcılara yazılacaq. Eyni zamanda, bu әsәrlәr "Radio Antenn" 101 FM-in canlı efirindә sәslәndirilir. Layihәnin әsas mәqsәdi Azәrbaycan vә dünya әdәbiyyatının әn mәşhur simalarının hәyatı, әsәrlәri haqqında maraqlı mәlumatlar, hәmçinin, әsәrlәrindәn seçmәlәr vermәklә bәdii әdәbiyyatı hәr kәs üçün әlçatan etmәkdir.

Bu layihәnin dәstәklәnmәsinin әsas sәbәblәrindәn biri dә görmә mәhdudiyyәtli insanların mütaliәsi üçün Azәrbaycan dilindә audio kontentin mәhdud olmasıdır. Layihә başa çatdıqdan sonra bütün sәs yazılarının flaşkardlar vasitәsilә kitab oxumaqda çәtinlik çәkәn şәxslәrә paylanması nәzәrdә tutulur. Bununla da görmә mәhdudiyyәtli insanlar üçün audio kitabxananın әsası qoyulmuş olacaq.

Qeyd edәk ki, proqramı hәftәiçi beş gün saat 10:00-dan 12:00-dәk "Radio Antenn" 101 FM-in yayımında dinlәyә bilәrsiniz.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,6%-ni әhatә edir vә 8500-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir. 2017-ci ildә keçirilmiş mobil rabitә şәbәkәlәrinin müqayisәli testlәrinә әsasәn, "Nar" şәbәkәsi mobil zәng xidmәtlәrinin göstәrilmәsi üzrә ölkәdә әn yüksәk nәticәyә nail olub.







**Qoç** - Uzaqdakı tәrәfdaşlarla әlaqәlәri inkişaf etdirmәk imkanı yaranıb. Çoxdan bәri planlaşdırdığınız sәfәr vә ya sәyahәtә hazırlaşa bilәrsiniz. Şәxsi işlәriniz vә maraqlarınızı işdәn üstün tutmayın.



**Buğa** - Bu gün çalışanda eksperiment edә bilәrsiniz. Sizi mәqsәdә aparacaq yolu yaxın әtrafınızdakı insanlar tәqdir etmәyә bilәrlәr. Lakin qәbul etdiyiniz qәrarların dürüstlüyünә inamınız önәmli meqamdır.



**Əkizlәr** - Düşünülmәmiş addımlar atmayın. Diqqәt vә sәrvaxtlıq tәlәb edәn işdә sәhv buraxmayın. Peşәkar fәaliyyәt sahәsi ilә yanaşı, evdә dә problemlәr yarana bilәr.



**Xәrçәng** - İstәnilәn çәtin situasiyadan vә mübahisәdәn qalib çıxmağı bacarın. Haqlısınız, mövqelәriniz sәbatlıdır. Opponentlәr tezliklә anlayacaqlar ki, dürüst mövqe tutubsunuz.

Diqqәtli olun, düzgün qәrar verin.



**Şir** - Yeknәsәk, adi işlәri tam başa çatdırın. Yarımçıq heç nә saxlamayın. İşin effektivliyi, mәhsuldarlıq azala bilәr. Çağırış, yarış şәraiti yaranarsa, şikayәtlәnmәyin. Problemlәr müvәqqәtidir.



**Qız** - Çәtin vә laübәli gün olsa da, problemlәrin öhdәsindәn gәlәcәksiniz. Uğursuzluğa düçar olmayacaqsınız. Yaşananları real dәyәrlәndirin. Hansısa iş alınmayanda tәşvişә düşmәyin. Kiçik problemlәrә görә әhvalınızı pozmayın.



**Tәrәzi** - Gün әhvalınızı yaxşılaşdıracaq. Xoş ünsiyyәt, sәmәrәli müzakirәlәr üçün şәrait yaranıb. İşdә situasiya normal olacaq. Tәlәskәnlik, tәlәblәr olmayacaq. Sürprizlәr vә gözlәnilmәz xәbәrlәr istisna deyil.



**Əqrәb** - Perspektivdә "stavka" edәcәyiniz ciddi işlәrlә mәşğul olun. Saatlar keçdikcә şәrtlәr dәyişә, situasiya kәskinlәşә bilәr. Bu sәbәbdәn dә diqqәti әsas işә yönәldin, soyuqqanlı olun, tәmkinli davranın.



**Oxatan** - Maraqlı görüşlәr, mәhsuldar danışıqlar günüdür. Mövqeyinizi hәssas şәkildә bildirin. Önәm verdiyiniz insanları özünüzdәn narazı salmayın. İşdәki uğurlarınızı rәhbәrlik görmәsә dә, az sonra mükafat vә ya gәlir әldә edәcәksiniz.



**Oğlaq** - Özünüzü qoruyun, sәhhәtinizә fikir verin. Nasazlıq, soyuqdәymә, zökәm, xroniki ağrıların kәskinlәşmәsi ehtimalı var. Sәfәrdәsinizsә, yaxşı bәlәd olmadığınız marşrutla hәrәkәt edirsinizsә, xüsusilә ehtiyatlı olun.



**Dolça** - Mәqsәdә aparan yolda sәd vә manеәlәr az olmayacaq. Amma sәbrli, tәmkinli davranaraq yaşam prinsiplәrinizә sәdaqәtli qalsanız, çәtinliklәri dәf edә bilәrsiniz. Yeni işlәr vә ya riskli әmәliyyatlarda iştirak maliyyә imkanlarınıza zәrbә vura bilәr.



**Balıqlar** - Maraqlı vә xoş söhbәtlәr, uzun zaman unuda bilmәyәcәyiniz görüş günüdür. Adәtlәrinizin bir qismini dәyişin, yaşamınızı daha zәngin edin. Əvvәllәr maraqlanmadığınız işlә mәşğul olun.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Dubayda "Gәlәcәyin muzeyi" yaradılır

**Dubayın әn gözәl vә mәnzәrәli yerindә - әtrafında "Emirates Towers"in yerlәşdiyi Şeyx Zayed magistral yolunun kәnarında dünyanın ultramüasir vә yüksәk texnologiyalar muzeyinin binası ucalır.**

"Gәlәcәyin muzeyi" adlanan bu obyekt cari ilin sonunda istifadәyә verilәcәk vә "Dubai Expo 2020" sәrgisinin mәrkәzinә çevrilәcәk.

"AZƏRTAC" bildirir ki, muzey binasının tikintisindә indiyәdәk dünyada istifadә olunmuş әn mürәkkәb konstruksiyalar tәtbiq olunub. Onun özәlliyi ondan ibarәtdir ki, burada tarixi artefaktlar yox, bәşәr tarixindә әn inqilabi vә innovativ ixtiralar nümayiş etdirilәcәk. "Gәlәcәyin muzeyi"nin layihәsi Birlәşmiş Ərәb Əmirliklәrinin "Killa Design" şirkәti tәrәfindәn 2015-ci ildә hazırlanıb vә inauqurasiyası Dubay әmiri Şeyx Mәhәmmәd Rәşid Əl Mәktumun iştirakı ilә keçirilib. Binanın fasadı paslanmaz polad vә şüşә konstruksiyalardan ibarәtdir. Pәncәrәlәr isә aviasiya sәnayesi texnologiyalarından istifadә etmәklә hazırlanıb. Memarlar bildiriblәr ki, muzeyin dizaynı Fen-şuy fәlsәfәsini - Yerin vә sәmanın vәhdәtini әks etdirir. Fasadın sәthi әrәb kalliqrafiyası ilә bәzәdilib. Dubay rәsmilәri bildirirlәr ki, "Gәlәcәyin muzeyi" bu şәhәri innovasiyalar vә yüksәk texnologiyalar habına çevirәcәk. Burada texnologiyanın sәhiyyә, iqlim dәyişmәsi vә әrzaq tәhlükәsizliyindә rolu barәdә eksponatlar nümayiş etdirilәcәk. Bundan başqa, muzeydә kosmik nailiyyәtlәr, informasiya texnologiyaları, "ağıllı şәhәrlәr", süni intellekt barәdә stendlәr dә olacaq. "Killa Design" şirkәtinin sahibi Şon Killa bildirib ki, onun arxitektorları dünyada әn iddialı layihәni tәqdim ediblәr. Onun sözlәrinә görә, tarixdә ilk dәfә olaraq pәncәrәlәrin birlәşmәsi ilә izolyasiya vә hidroizolyasiya vahid bir sistem halında inşa edilib. "Biz yeni texnika vә innovasiyalar yaratmağa çalışmışıq, inşaat sektorunda dayanıqlı texnologiyaların tәtbiqi ilә gәlәcәyә cığır açmışıq", - deyә Killa әlavә edib. Dubay hakimiyyәti isә bildirib ki, muzeyin istifadәyә verilmәsi innovasiya texnologiyaları habına çevrilmәklә yanaşı, bu şәhәrin turizm strategiyasına da böyük töhfә olacaq.

*Hazırladı: Ramil QULİYEV*

### Elan

Dövlәt Sәrhәd Xidmәtinin әmәkdaşı Atakişiyev Tural Möhübbәt oğluna verilmiş GHN 002591 nömrәli şәxsi vәsiqә itdiyi üçün etibarsız sayılır.

Hәsәnov Hәsәn Sәrastan oğluna mәxsus, Bakı şәhәri, Nәsimi rayonu, V mikrorayon, Asif Mәhәrrәmov küçәsi, ev №34 "a", mәnzil №53 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Hüseynli Aydan Fuad qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilәn tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.